RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 176 (8492) CÜMƏ AXŞAMI, 3 sentyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## İlham Əliyev böhran şəraitində də sosial öhdəlikləri reallığa çevirir

### Birinci vitse-prezident Mehriban Əliyeva dövlət başçısının şəhid ailələri, əlillər və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində gördüyü işlərə böyük töhfələr verir

Bəşəriyyəti çətin sınaqlarla üz-üzə qoyan qlobal böhran dünya iqtisadiyyatını iflic duruma saldı. İqtisadiyyatın tənəzzülü əlbəttə ki, ölkələrin sosial siyasətinə təsirsiz ötüşmədi. Əsas diqqətini insan sağlamlığının qorunması istiqamətinə yönəldən dövlətlərdə əksər sosial-iqtisadi layihələrin icrası təxirə salındı.

Qlobal pandemiya səbəbindən Azərbaycanda da iqtisadi fəallıq əvvəlki aylara nisbətən azaldı ki, bunun da sosial sferaya təsiri qaçılmaz idi. Bu reallığı ilk gündən düzgün dəyərləndirən Prezident İlham Əliyevin qarşıya qoyduğu əsas vəzifələrdən biri əhalinin sosial rifahının qorunması idi. Təsadüfi deyil ki, dövlət başçısının 19 mart 2020-ci il tarixli sərəncamının icrası ilə bağlı təsdiqlənmiş Tədbirlər Planında məşğulluğa və sosial rifaha dəstək məqsədilə 4 istiqamət üzrə 12 tədbir əksini tapdı.

İqtisadiyyatdakı tənəzzülə baxmayaraq, cənab İlham Əliyevin təxirə salmadan reallaşdırdığı sosial layihələr bir daha Azərbaycanın həm də sosial dövlət olduğunu təsdiqlədi.

#### Prezident qayğısı, sosial dəstək proqramları...

Pandemiya ilə mübarizə dövründə xalqın sosial rifah halının yaxşılaşdırılması istiqamətində mühüm addımlar atan dövlət başçısı bəyan etdi ki, qlobal böhrana baxmayaraq, ilin əvvəlində müəyyənləşdirilən bütün sosial layihələr icra olunacaq. Bu gün ölkəmizdə reallaşan sosial layihələrə nəzər yetirsək, həqiqətən də görərik ki, həm insanların sağlamlığının qorunması, həm də sosial rifah halının yaxşılaşdırılması məsələləri Prezidentin gündəliyində birinci olaraq qalır.

Prezidentin ən böyük sosial-iqtisadi paketi çərçivəsində hazırlanan dövlət dəstəyi proqramlarına əsasən karantin dövründə əhalinin sosial müdafiəsinin təminatı sahəsində mühüm addımlar atıldı. Məhz bu proqramlarda nəzərdə tutulan məşğulluq və sosial rifaha dəstək tədbirləri 5 milyon nəfəri əhatə etdi. Dövlət sektorunda çalışan 900 min nəfərin, özəl sekorda isə 760 min nəfərin iş yeri və əməkhaqları qorundu. Sahibkarlıq subyektlərinə böyük güzəştlər edildi. İşsiz vətəndaşlara hər ay ödənilən 190 manatlıq birdəfəlik müavinətlər, ümumilikdə, 333 milyon manat təşkil etdi. 85 min ailəyə, aylıq orta məbləği 225 manat olmaqla, ünvanlı sosial yardım verildi.

Azərbaycan azsaylı ölkələrdən biridir ki, həm də sosial mənzil layihələri həyata keçirir. Dövlət başçısının və Birinci vitse-prezident Mehriban Əliyevanın xüsusi qayğısı nəticəsində bu istiqamətdə tədbirlər geniş vüsət alır.

Məhz bu çətin dönəmdə də cənab İlham Əliyev əhalinin sosial cəhətdən qayğıya ehtiyacı olan təbəqəsinin, şəhid ailələrinin, əlillərin, qaçqın və məcburi köçkünlərin problemlərini hər zamankı kimi diqqət mərkəzində saxladı. Bu kateqoriyadan olan vətəndaşların sosial rifahının, mənzil-məişət probleminin həlli istiqamətində çox mühüm addımlar atıldı.

Ardı 3-cü səh.

## Yaponiya və Azərbaycan arasında münasibətlər çox uğurla inkişaf edir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Yaponiyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Cuniçi Vadanın etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.**

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Səfir **Cuniçi VADA:** Cənab Prezident, mənim Azərbaycan Respublikasına fövqəladə və səlahiyyətli səfir təyin olunmağımla bağlı etimadnamə məktubunu və sələfimin məktubunu Sizə təqdim etməkdən şərəf hissi duyuram.

Ardı 2-ci səh.

## Prezident İlham ƏLİYEV: “Bizim gələcəkdə əməkdaşlığımızı necə planlaşdırmaq barədə düşünməyə ehtiyacımız var”



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Yunanıstanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Nikolaos Piperiqkosun etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.**

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Səfir **Nikolaos PİPERİQKOS:** Zati-aliləri, fürsətdən istifadə edərək şəxsən Prezidentimin ən xoş arzularını və qarşılıqlı maraq kəsb edən bütün sahələrdə əməkdaşlığımızı genişləndirməklə bağlı Yunanıstanın güclü istəklərini Sizə çatdırıram.

Ardı 2-ci səh.

## Prezidentə yüksək inam və etibar

### Bu, əmin-amanlığın, iqtisadi-siyasi və mənəvi yeniləşmənin, qanunçuluğun və yeni hakimiyyət quruculuğu siyasətinin başlıca təminatıdır

**Sosial Tədqiqatlar Mərkəzi (STM) vaxtaşırı olaraq dövlət və cəmiyyət həyatında baş verən dəyişiklikləri, müşahidə edilən tendensiyaları, yeni yanaşmaları, cəmiyyətdəki dinamikaları öyrənir, tədqiq edir və ictimaiyyətə, eyni zamanda, dövlət orqanlarına təqdim etmək üçün açıq və qapalı arayışlar hazırlayır.**

STM dövri olaraq “İnam İndeksi” nəşrinin xüsusi buraxılışında ölkə başçısının fəaliyyətinin ictimai qiymətləndirilməsini həyata keçirir və Prezident İlham Əliyevin fəaliyyəti, həyata keçirdiyi genişmiqyaslı iqtisadi-sosial və xarici siyasət kursunun həyatımızdakı yeri, eləcə də qarşıya qoyulan hədəflərə dair elmi təhlillər aparır.

Ardı 4-cü səh.



## Gədəbəy taxılçıları bu il yüksək göstəricilər qazandılar

Etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərtidir. Bu baxımdan dövlət əhalinin ərzaq təminatının ödənilməsi sahəsində həyata keçirdiyi islahatları uğurla davam etdirir.

Ölkədə ərzaq təhlükəsizliyinin birbaşa asılı olduğu aqrar sahənin inkişafına yönəldilən dövlət proqramları uğurla həyata keçirilir. Nəticədə Azərbaycan iqtisadiyyatının ayrılmaz hissəsi olan kənd təsərrüfatı sürətlə inkişaf edir.

Gədəbəy rayonunda heyvandarlıqla yanaşı, taxılçılığın da inkişafına diqqətlə yanaşılır. Odur ki, hər il rayonda taxıl istehsalı sahəsində uğurlu göstəricilərə nail olunur. Bunu cari ildə taxılçı fermerlərin qazandıqları nailiyyətlər də deməyə əsas verir.

Ardı 6-cı səh.

## Yeddi ayda 1 milyard dollarlıqdan çox qeyri-neft məhsulları ixrac olunub

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin “İxrac İcmalı”nın 2020-ci ilin avqust sayı təqdim edilib.**

Bildirilir ki, 2020-ci ilin yeddi ayı ərzində Azərbaycanın ixracı 9,1 milyard, o cümlədən qeyri-neft sektoru üzrə 1 milyard 35 milyon dollar dəyərində olub.

Ardı 6-cı səh.



## Qənaətbəxş dinamikadan arxayınlaşmaq olmaz

### İlham ƏLİYEV: “Vətəndaşların məsuliyyəti hazırda birinci dərəcəli məsələdir”

Ayrı-ayrı ölkələrdə koronavirus əleyhinə peyvəndlərin hazırlanması barədə informasiyalar yayılsa da, bəşəriyyət hələ ki, COVID-19 qarşısında acizdir. Hər ötən gün dünya üzrə on minlərlə insan virusa yoluxur. Artıq yoluxanların sayı 26 milyon, xəstəlikdən vəfat edənlərin sayı isə 860 min nəfəri ötüb.

#### Başlıca vəzifə vətəndaşların sağlamlığıdır

Ümumiyyətlə, bu ilin əvvəllərindən etibarən bütün ölkələrdə keçirilən virusla mübarizə tədbirləri hazırda oxşar nəticələrin əldə edilməsi ilə müşahidə olunur. Son vaxtlarda yoluxmanın sayının azalması, lakin yumşalma tədbirlərindən sonra çoxalması demək olar ki, bütün ölkələr üçün xarakterik göstəricilərdir.

Ardı 5-ci səh.

## Nümunəvi mübarizə

### Azərbaycan dövləti vətəndaşlarının sağlamlığını və təhlükəsizliyini özünün ali məqsədi hesab edir

**Böyük-kiçik, yaşlı-cavan, imkanlı-imkansız bilməyən, heç bir sərhəd tanımayan yeni tip koronavirus yarım ildən çoxdur ki, dünyanı diz üstə çökdürüb. Artıq Yer kürəsinin 26 milyona qədər sakini bu infeksiyaya yoluxub, 860 mindən çox insan isə onun qurbanı olub.**

COVID-19 virusuna yoluxma sayına görə ABŞ, Braziliya və Hindistan liderdirlər. Siyahının dördüncü yerində Rusiya qərarlaşıb.

Digər ölkələrlə müqayisədə Azərbaycanda sanitar-epidemioloji vəziyyət qənaətbəxşdir. Səhiyyə sistemi Azərbaycandan güclü olan inkişaf etmiş ölkələrdən fərqli olaraq, respublikamızda istər yoluxma, istərsə də ölüm sayında göstəricilər qat-qat aşağıdır. Buna səbəb COVID ilə mübarizədə ölkəmizin çox uğurlu fəaliyyət göstərməsi, qəbul edilmiş qərarların vaxtında və yüksək keyfiyyətlə icra edilməsi, əhalinin tətbiq olunan karantin və gigiyena qaydalarına daha ciddi və məsuliyyətlə yanaşması, dövlət-vətəndaş həmrəyliyinin olmasıdır.

Ardı 5-ci səh.

## Ermənistanda faşizm dövlət siyasətidir

### Nikol Paşinyan sələflərinin xəttini davam etdirərək cəbhədə təxribatlar törədir

**Qlobal miqyasda ən böyük təhdidlərdən biri də bu gün neofaşizmin yenidən təşəkkül tapmasıdır. Hazırda neofaşist ideyaları bəşəriyyətə qarşı yönəlmiş qanlı siyasət kimi qiymətləndirilir və onunla qətiyyətli mübarizə mühüm vəzifəyə çevrilir.**

Ardı 7-ci səh.

# Yaponiya və Azərbaycan arasında münasibətlər çox uğurla inkişaf edir



*Əvvəli 1-ci səh.*

Həmçinin icazə verin, əlahəzrət Yaponiya İmperatorunun xoş arzularını da Sizə çatdırım. O, COVID-19 infeksiyası nəticəsində ölkənizin üzləşdiyi istənilən çətinliklərə görə dərin təəssüf hissini bildirir və səmimi-qəlbdən ümid edir ki, iki ölkə arasında dostluq münasibətləri gələcəkdə daha da yüksək səviyyəyə qalxacaqdır. Təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV:** Təşəkkür edirəm. Sizi görməyə çox şadam. Mənim də ən xoş arzularımı əlahəzrət İmperatora çatdırmağınızı sizdən xahiş edirəm. Mən sizə ölkəmizdə yaxşı vaxt keçirməyi arzu edirəm. Əminəm ki, siz çox məşğul olacaqsınız, çünki Yaponiya və Azərbaycan arasında münasibətlər çox uğurla inkişaf edir. Əməkdaşlığımızın çox geniş gündəliyi var. Əvvəla, bizim siyasi dialoqumuz çox fəaldır. Biz iqtisadi sahədə çox yaxşı nəticələr görürük. Çox şadıq ki, yapon şirkətləri Azərbaycanda iş qurmaqda maraqlıdırlar. Onlar yaxşı investorlardır. Onlar Azərbaycanın neft və qaz sektoruna çoxlu vəsait yatırıblar.

Ümidvaram ki, iqtisadiyyatımızın digər sektorlarına da maraq olacaqdır. Xüsusilə biznes mühiti ilə bağlı vəziyyətin yaxşılaşdırılmasını nəzərə alaraq Azərbaycan əcnəbi şirkətlər üçün cəlbedici olmağa davam edir. Biz həmçinin müxtəlif layihələrə maliyyə dəstəyi göstərdiyinizə görə sizə minnətdarıq. Yapon banklarının və maliyyə institutlarının maliyyə dəstəyi ilə biz enerji infrastrukturumuzun iki mühüm layihəsini icra etdik - iki elektrik stansiyası, sınaq stansiyaları, “Şimal-1” və “Şimal-2”. Ümumi gücü 800 meqavata yaxındır. Əlbəttə ki, bu, bizim enerji təhlükəsizliyimizə böyük töhfədir.

Beləliklə, biz yapon şirkətlərinin burada çalışdığına şadıq və həmçinin müxtəlif sosial layihələrə göstərdiyiniz könüllü dəstəyinizə görə sizə təşəkkürümüzü bildirmək istəyirik. Bu layihələr təhsil, infrastruktur, müxtəlif kəndlərdə su təchizatı ilə bağlıdır. Biz bu dostluq jestini çox yüksək qiymətləndiririk və buna görə mən bir daha sizin hökumətinizə öz təşəkkürümü bildirmək istəyirəm. Ümid edirəm ki, üzümüzə gələn illərdə biz bu sıx əməkdaşlığı gücləndirəcəyik. Mən sizə ölkəmizdə vəzifənizin icrası ilə bağlı uğurlar arzulayıram.

Səfir **Cuniçi VADA:** Çox sağ olun, cənab Prezident. Demək olar ki, 30 il ərzində hər iki ölkə arasında qarşılıqlı anlaşma və dostluğun dərinləşməsinə görə minnətdaram. Bizi narahat edən heç bir siyasi məsələ yoxdur. Biz biznes və iqtisadi əməkdaşlıq sahəsində çoxlu layihə və proqramların icrasına nail olmuşuq. Hər iki xalqın nümayəndələri arasında mübadilə çox sürətlə artmışdır. Biz çox şadıq. Mən əməkdaşlıq sektorlarının daha da inkişaf etdirilməsi və genişləndirilməsi üçün əlimdən gələni edəcəyəm, Siz qeyd etdiyiniz kimi, təkcə neft və qaz sahəsində yox. Məsələn, vurğulamaq istərdim ki, informasiya texnologiyaları cəmiyyətin transformasiyasıdır və ya ekologiya, iqlim dəyişikliyinə aid müxtəlif məsələlər, əlbəttə ki, kənd təsərrüfatı, turizm və bir çox digər sahələr. Beləliklə, mən əlimdən gələni edəcəyəm.

# *Prezident İlham ƏLİYEV:* “Bizim gələcəkdə əməkdaşlığımızı necə planlaşdırmaq barədə düşünməyə ehtiyacımız var”

*Əvvəli 1-ci səh.*



**Prezident İlham ƏLİYEV:** Təşəkkür edirəm, cənab səfir. Xahiş edirəm mənim də salamlarımı ölkənizin Prezidentinə çatdırın. Bildiyimə görə, siz artıq iki həftədən çoxdur ki, ölkəmizdəsiniz. Lakin Azərbaycan dilini artıq müəyyən qədər öyrənmisiniz. Ona görə də bizim dilimizdə müraciətinizə görə minnətdaram. Ümidvaram ki, şəhərimizlə tanış olmaq üçün vaxtınız olub. Ümid edirəm ki, Azərbaycandakı fəaliyyətiniz ərzində ölkəmizi səyahət etmək imkanınız olacaq. Azərbaycanla Yunanıstanın iqlimi çox oxşardır. Düşünürəm ki, iqlimlə bağlı vəziyyət sizə tanış gələcək. Beləliklə, siz özünüzü Azərbaycanda rahat hiss edəcəksiniz. Mən həmçinin ümid edirəm ki, Azərbaycandakı fəaliyyətiniz ərzində biz əməkdaşlıq sahələri aşkar edəcəyik ki, bu da bizə diqqəti praktiki məsələlər üzərində cəmləşdirməyə imkan verəcək. Açığını desək, düşünürəm ki, son bir neçə il aramızda çox aşağı səviyyədə əməkdaşlıq illəri olub. Əvvəlki vaxtlarda bizim daha fəal təmaslarımız olub. Bildiyiniz kimi, mən sizin ölkənizə rəsmi səfər etmişəm, Yunanıstanın iki prezidenti Azərbaycanda rəsmi səfərdə olub, Baş Nazir səfərdə olub. Lakin Yunanıstanın əvvəlki hökuməti hakimiyyətə gələndən sonra bu təmaslar dayanıb və bu, Yunanıstan hökumətinin təşəbbüsü olub. Beləliklə, hazırda bizim faktiki olaraq aktiv təmaslarımız, nümayəndə heyətlərinin mübadiləsi yoxdur. Bizim gələcəkdə əməkdaşlığımızı necə planlaşdırmaq barədə düşünməyə ehtiyacımız var.

Cənab səfir, mən sizinlə açıq danışacağam. Sözsüz ki, diplomatların özlərinə məxsus ünsiyyət üslubu olur. Mən diplomatlar hazırlayan institutda təhsil almışam. Ona görə də mən diplomatik dilin nə olduğunu bilirəm. Lakin zənnimcə, yaxşı olar ki, harada olduğumuz, nə istədiyimiz və necə irəli getməyimizlə bağlı aydın anlayışa sahib olmaq üçün bir-birimizin mövqelərimizi bilək.

Düşünürəm ki, əməkdaşlığımıza mənfi təsir göstərən bir neçə məsələ olub. Onlardan biri Yunanıstanın qaz şirkəti “DESFA” ilə əlaqədardır. Deyə bilərəm ki, bizim enerji şirkətimiz SOCAR Yunanıstan hökumətinin müraciəti əsasında “DESFA”nı almaq üçün tenderə qoşuldu. SOCAR-ın tender prosedurunda iştirak etməsini Yunanıstanın sabiq Baş Naziri cənab Samaras şəxsən məndən xahiş etdi. Açıq tender proseduru nəticəsində SOCAR ən yaxşı təklifi etdi və “DESFA”ya sahib olmaq hüququnu qazandı. Bu, bizim “Cənub qaz dəhlizi”nin tikintisi ilə bağlı planlarımız baxımından da mühüm əhəmiyyət kəsb edirdi. Bu, təxminən 6 il bundan əvvəl olub. Həmin vaxt, əlbəttə ki, biz Azərbaycanla Avropa arasında bağlantı inşa etməyi, sadəcə olaraq, planlaşdırırdıq və düşündük ki, əgər Azərbaycan Yunanıstanı qazla təchiz edəcəksə, bu qazı paylaşdıran şirkətə sahib olmaq da yaxşı olar. İstənilən halda biz qiymətin 10 faizini təşkil edən 40 milyon avro məbləğində avans ödənişi etdik və 4 il ərzində - 2014-cü ildən 2018-ci ilədək həmin vəsait Yunanıstan hökumətinin ixtiyarında olub. Lakin əfsuslar olsun ki, Yunanıstanın əvvəlki hökuməti SOCAR-ın bu hüququ itirməsi üçün hər şeyi etdi. Mən təkrar etmək istərdim ki, bu legitim hüququ biz ilkin olaraq Yunanıstanın Baş Nazirinin təklifi əsasında, açıq və rəqabətli tender proseduru zamanı əldə etdik. Lakin siyasi səbəblərdən, Yunanıstanın əvvəlki hökumətinin Azərbaycana olan mənfi münasibəti səbəbindən bu legitim hüquqdan məhrum olduq. Sözsüz ki, bu, bizim artıq aşağı səviyyədə olan əlaqələrimizə ciddi təsir etdi. Lakin ondan sonra, açığını desək, biz qərara gəldik ki, əgər Yunanıstan hökuməti bizə belə münasibət göstərirsə, biz də necə cavab verəcəyimiz barədə düşünməliyik. Bizim cavabımız faktiki olaraq heç nə etməmək idi. Biz heç bir demarş etmədik. Biz heç bir diplomatik addım atmadıq. Biz, sadəcə olaraq, dedik yaxşı, əgər onlar bizi istəmirlərsə, əgər başqa şirkətlərin “DESFA”nın səhmdarları olmasına üstünlük verirlərsə, bu, onların hüququdur, biz bununla bağlı heç nə edə bilmərik. Lakin sizə deyə bilərəm ki, mən bu məsələni bir neçə dəfə Brüsseldə Avropa İttifaqının iki sabiq lideri ilə - cənab Barrozu və cənab Tuskla qaldırdım. Mən bu məsələni qaldırdım, çünki bu, 4 il davam etdi. Mən dedim ki, baxın, biz etimaddan danışırıq, biz Avropa İttifaqı ilə Azərbaycan arasında Avropa İttifaqının fəal şəkildə təbliğ etdiyi yeni saziş barədə danışırıq. Biz etimadı necə gücləndirə bilərik, əgər bizim şirkətimiz tenderdə qalib gələrək Avropa İttifaqına üzv ölkənin, Yunanıstanın şirkətini satın alır, sonra Yunanıstan hökuməti addımlar atır. Bu addım sizin parlamentdə yeni qanunun qəbulu sayəsində atıldı. Bu da həmin məsələni mümkünsüz etdi və sonra Avropa Komissiyası da 4 il ərzində bu sövdələşməni təsdiq etmədi. Mən dedim, bizə “yox” deyin, bizə “sizi istəmirik” deyin. Lakin bizi 4 il müddətində bu vəziyyətdə saxlamaq tərəfdaşlıq əlaməti deyil.

Beləliklə, bu, çox məyusedici məsələ idi və əlbəttə ki, düşünürəm, bizim əlaqələrimizə ciddi təsir etdi. Lakin yenə də deyirəm, bu, Azərbaycanın təşəbbüsü deyildi. Azərbaycan hər zaman əlaqələrin inkişafını dəstəkləyib. Yeri gəlmişkən, siz sözsüz ki, bilirsiniz, TAP Azərbaycan qazının nəqli üçün yeganə variant deyildi. Azərbaycan qazının Türkiyə ərazisinə çatandan sonra nəql olunması üçün bir neçə variant var idi. Fərqli istiqamətdə ola bilərdi. Lakin TAP-ın seçilməsi həm də investorlar, xarici neft şirkətləri və Azərbaycan tərəfindən verilmiş qərar idi. Başqa sözlə, biz öz tərəfimizdən Yunanıstana müsbət jest etdik. Lakin əvvəlki hökumət hakimiyyətə gələndən sonra, mən bunu xüsusilə vurğulamaq istəyirəm, çünki keçmiş Siriza hökuməti hakimiyyətə gəlməmişdən əvvəl bizim əvvəlki Yunanıstan hökumətləri ilə çox yaxşı münasibətlərimiz olub.

Mənim sizinlə qaldırmaq istədiyim, sizin bunu digər mənbələrdən deyil, məndən eşitməyinizi istədiyim ikinci məsələ Ermənistan, Yunanıstan və Kipr arasında hərbi əməkdaşlıqla bağlı narahatlığımızdır. Bildiyiniz kimi, Ermənistan bizim ərazilərimizi işğal etmiş ölkədir. Xocalıda soyqırımı aktı törədib, bir milyon azərbaycanlını evlərindən didərgin salıb, tarixi, mədəni, dini abidələrimizi dağıdıb, işğal edilmiş ərazilərdə etnik təmizləmə siyasəti həyata keçirib, beynəlxalq hüququ pozur, BMT Təhlükəsizlik Şurasının və başqa təşkilatların qətnamələrinə əməl etmir. Yeri gəlmişkən, iki il əvvəl Avropa İttifaqı və Azərbaycan “Tərəfdaşlıq prioritetləri” adlı sənədi paraflayıblar. Orada Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını dəstəkləyir.

Başqa sözlə, Ermənistan aqressiv davranır. Dövlət sərhədində son gərginliklər Ermənistanın təxribatıdır, terror aktı törətmək üçün sonuncu cəhd zamanı təmas xəttini keçmək istəyərkən erməni zabiti saxlanılıb və o, artıq etiraf edib ki, onun qrupu bizim hərbçilərimizə və mülki şəxslərə hücum etmək məqsədi güdüb. Bir sözlə, Ermənistan Azərbaycanın düşmənidir və bu, onların qərarı olub. Sözsüz ki, Ermənistanın istənilən ölkə ilə sıx hərbi əməkdaşlığı narahatlıq doğurur. Siz yəqin ki, sərhəddə Ermənistanın təxribatından dərhal sonra Rusiyadan Ermənistana intensiv silah təchizatına bizim reaksiyamızdan xəbərdarsınız. Aktiv toqquşmalar iyulun 16-da dayandırıldı və iyulun 17-dən başlayaraq dünənə qədər, - dünən sonuncu uçuş idi, - Rusiyadan Ermənistana Xəzəryanı dövlətlərin hava məkanı vasitəsilə çoxsaylı yük reysləri həyata keçirilib. Bunu, sadəcə, sizə demirəm. Biz bu məsələni rusiyalı tərəfdaşlarımızla da qaldırmışıq ki, Ermənistanla hərbi əməkdaşlıq bizi narahat edən məsələdir. Çünki bu, Azərbaycan üçün mühüm təhdid törədir, çünki bu silahlardan istifadə edərək onlar bizim hərbçilərimizi, mülki şəxsləri öldürürlər.

Əməkdaşlığın bu üçtərəfli formatı bizi narahat edir. Əlbəttə ki, hər bir ölkə nəyi doğru düşünürsə, onu da edir. Buna görə biz bunu bloklamaq və ya istənilən şəkildə qarşısını almaq mövqeyində deyilik. Lakin hesab edirəm ki, bunun bizi narahat edən məsələ olduğunu məndən eşitməyiniz yaxşıdır və bunun nəyə görə baş verdiyini mən izah etdim. Ermənistanın torpaqlarını işğal edən Azərbaycan deyil, Ermənistan Azərbaycanın ərazisini işğal edib. Bu da bütün beynəlxalq təşkilatların sənədlərində öz əksini tapıb.

Toxunmaq istədiyim sonuncu məsələ Türkiyə və Yunanıstan arasında Şərqi Aralıq dənizi regionunda bu yaxınlarda baş verən gərginlikdir. Sizə deyə bilərəm və bu sirr deyil ki, Türkiyə təkcə bizim dost və tərəfdaşımız yox, bizim üçün qardaş ölkədir. Biz heç bir tərəddüd etmədən Türkiyəni dəstəkləyirik və bütün hallarda dəstəkləyəcəyik. Biz eyni dəstəyi türk qardaşlarımızdan da görürük. Onlar Azərbaycanı bütün məsələlərdə dəstəkləyirlər və biz onları bütün məsələlərdə dəstəkləyirik, o cümlədən Şərqi Aralıq dənizində kəşfiyyat məsələsi ilə bağlı. Mən istəyirəm ki, siz bizim mövqeyimizi biləsiniz. Bu mövqe mənim göstərişimlə artıq Azərbaycan hökuməti tərəfindən rəsmi açıqlanmışdır. Sizə bir daha deyə bilərəm ki, Türkiyə bizim üçün təkcə dost yox, qardaş ölkədir və türklər bizim qardaşlarımızdır. Beləliklə, bütün məsələlərdə biz onların yanında olacağıq.

Toxunulası bir müsbət məsələ tapmaq istəyirəm, amma əfsuslar olsun ki, tapa bilmirəm. Ola bilsin, biz ümid edirik ki, Yunanıstanın nisbətən bu yaxınlarda iqtidara gəlmiş yeni hökuməti əvvəlki hökumətin Azərbaycana qarşı siyasətini yenidən nəzərdən keçirəcək və biz təmasları bərpa edə, müsbət dinamika yaradan məsələləri müzakirə edə bilərik. Lakin əlbəttə ki, bu, Yunanıstan hökumətinin siyasəti və mövqeyindən asılı olacaq. Bununla çıxışımı bitirirəm və sizə nəyin doğru olduğunu düşündüyünüzü söyləməyə imkan verirəm.

Səfir **Nikolaos PİPERİQKOS:** Zati-aliləri, Yunanıstan-Azərbaycan münasibətlərinin vəziyyəti ilə bağlı qeydləriniz üçün Sizə təşəkkürümü bildirirəm. Sizin dediklərinizi çox diqqətlə dinlədim və dediklərinizi hökumətimizə çatdıracağam. Lakin ötən il hökumət dəyişdi. Hökumətimizin bütün sektorlarla bağlı məşğul olası çoxlu məsələləri var. Bu hökumətin əhəmiyyətli dərəcədə əhatəsi var. Hesab edirəm ki, Yunanıstanla Azərbaycanı birləşdirən daha çox şeylər var. Məsələn, beynəlxalq hüquqa hörmət. Çünki yaxşı məlumdur, Yunanıstan beynəlxalq hüququ uzun müddətdir ki, qətiyyətlə dəstəkləyir.

Əlbəttə ki, bir neçə il bundan əvvəl əməkdaşlığımız yaxşı inkişaf etmişdir. Lakin yeni hökumət sizinlə əlaqə yaratmaq üçün daha yaxşı yolları tapmaq məqsədilə zəruri olanı edəcəkdir. Həmçinin qeyd etmək istəyirəm ki, bizim fikrimizcə, sizin ölkəniz və bizim ölkəmiz üçtərəfli və ikitərəfli əməkdaşlıq aparan çox maraqlı ölkələrdir. Sizdə bu təcrübə zəngindir, sizdə hətta üçtərəfli diplomatiyanın nümunəsi var. Bizim də bir çox önəmli ölkələrlə, xüsusilə Şərqi Aralıq dənizi regionunda çox uğurlu üçtərəfli diplomatiyamız var. Biz həmişə beynəlxalq hüquqa tamamilə riayət edərək Azərbaycanla münasibətlərimizə zərər vurmamağa diqqət yetiririk və tərəfinizdən bunun Sizin üçün mümkün olduğu qədər qarşılığını görmək istərdik. Lakin düşünürəm ki, yeni hökumətimizə Sizin hökumətinizlə münasibətlərimizi yaxşılaşdırmağa imkan tapmaq üçün vaxt verildiyini nəzərə alaraq əməkdaşlığımızın gələcəyi daha yaxşı ola bilər. Hazırda bu qədər söyləyə bilərəm.

**Prezident İlham ƏLİYEV:** Təşəkkür edirəm.

# *ABŞ-ın “Foreign Policy News” nəşri:* “Azərbaycan Prezidenti xəbərdarlıq edir ki, heç kəs qanundan üstün ola bilməz”




**ABŞ-ın “Foreign Policy News” nəşri Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalının açılışında Prezident İlham Əliyevin videoformatda çıxışı haqqında AZƏRTAC-a istinadən məqalə dərc edib.**

Məqalədə bildirilir ki, Prezident İlham Əliyev həmin çıxışında koronavirus pandemiyası dövründə karantin rejimi qaydalarına ciddi yanaşmayanlara xəbərdarlıq edib. Həmçinin məqalədə Prezident İlham Əliyevin çıxışından qanunun aliliyi ilə bağlı aşağıdakı sitatlar gətirilir:

“Əfsuslar olsun ki, bu gün hələ də bu vəziyyəti dərk etməyənlər, məsuliyyətini itirmiş insanlar da mövcuddur və qaydaların kobudcasına pozulması halları da vardır. Belə hallar aşkarlananda təbii ki, cəza tədbirləri də mütləq olmalıdır və tətbiq edilir. Cəza tədbirləri bütün kateqoriyalardan olan insanlara tətbiq edilir. Heç bir ayrıseçkiliyə yol verilməməlidir və verilmir. İctimai vəziyyətinə, ictimai statusuna baxmayaraq, qanun qarşısında hamı bərabərdir. Azərbaycanda bərabərlik, ədalət və qanunun aliliyi əsas prinsiplərdən biridir və mən bütün vətəndaşları məsuliyyətə çağırıram. Birincisi, özlərini, öz yaxınlarını qorumaq üçün daha məsuliyyətli olmalıdırlar, digər tərəfdən qaydaları pozanlar, böyük kütləvi tədbirlər təşkil edənlər və beləliklə, ölkə qanunları ilə və mövcud olan qaydalarla nümayişkaranə hesablaşmayanlar mütləq öz cəzasını alacaq və alırlar. İctimaiyyət də bu məsələ ilə bağlı məlumatlandırılır. Hesab edirəm ki, Azərbaycan vətəndaşları yaxşı görürlər ki, qanun hər kəs üçün qanundur. Heç kim qanundan üstün ola bilməz, heç kimdə heç bir imtiyaz ola bilməz və heç kimə heç bir güzəşt edilmir və edilməyəcək”.

“Görülmüş bütün işlər bir məqsədi güdür ki, biz bu vəziyyətdən az itkilərlə çıxaq. Hesab edirəm ki, biz buna nail oluruq. Hər şey müqayisə ilə ölçülür. COVID-19-la bağlı dünya statistikasına baxdıqda görürük ki, ölkəmizdə əldə edilmiş nəticələr doğrudan da çox təsirlidir, çox dəyərlidir. Mən hesab edirəm ki, biz məhz bu tədbirlər nəticəsində minlərlə insanın həyatını qoruduq”.

“Əminəm ki, birgə səylər nəticəsində, həm də bundan sonra dövlətin qətiyyətli və düşünülmüş ədalətli addımları, vətəndaşların məsuliyyəti imkan verəcək ki, biz bu ağır vəziyyətdən az itkilərlə çıxaq və daha tez bir zamanda normal, adi həyata qayıdaq”.

Qeyd edək ki, koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli hospitalın açılışında Prezident İlham Əliyevin çıxışı əsasında məqalələr AZƏRTAC-a istinadla “The Baltic Course” onlayn jurnalı, Avropa İttifaqının “Bridge”, Rumıniyanın “News24hours”, Qazaxıstanın “Newsroom”, Gürcüstanın “Geotimes”, “Newsday” portalları, Misirin “Asiaelyoum” İnformasiya Agentliyi tərəfindən də yayılıb.

# Qazaxıstan portalında Azərbaycan Prezidentinin modul tipli hospitalın açılışındakı çıxışının bəzi məqamları dərc olunub

Qazaxıstanın “Newsroom” portalında Azərbaycan Prezidenti İlham Əliyevin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli hospitalın açılışındakı çıxışından bəzi məqamların yer aldığı yazı dərc olunub.




Portalın AZƏRTAC-a istinadla dərc etdiyi yazıda dövlət başçısının Azərbaycanın COVID-19 pandemiyası ilə mübarizədə əldə etdiyi nailiyyətlər barədə fikirləri yer alıb. Qeyd edilir ki, Prezident İlham Əliyev hazırda COVID-19 xəstələri üçün 46 xəstəxananın fəaliyyət göstərdiyini bildirib.

Bundan başqa, yazıda Prezident İlham Əliyevin COVID-19 virusuna qarşı peyvəndin alınması ilə bağlı fikirləri oxucuların diqqətinə çatdırılır.

“Newsroom” portalı Azərbaycan Prezidentinin qanunun aliliyi ilə bağlı fikirlərinə də yer verib: “İctimai vəziyyətinə, ictimai statusuna baxmayaraq, qanun qarşısında hamı bərabərdir. Azərbaycanda bərabərlik, ədalət və qanunun aliliyi əsas prinsiplərdən biridir və mən bütün vətəndaşları məsuliyyətə çağırıram. Birincisi, özlərini, öz yaxınlarını qorumaq üçün daha məsuliyyətli olmalıdırlar, digər tərəfdən, qaydaları pozanlar, böyük kütləvi tədbirlər təşkil edənlər və beləliklə, ölkə qanunları ilə və mövcud olan qaydalarla nümayişkaranə hesablaşmayanlar mütləq öz cəzasını alacaq və alırlar. İctimaiyyət də bu məsələ ilə bağlı məlumatlandırılır. Hesab edirəm ki, Azərbaycan vətəndaşları yaxşı görürlər ki, qanun hər kəs üçün qanundur. Heç kim qanundan üstün ola bilməz, heç kimdə heç bir imtiyaz ola bilməz və heç kimə heç bir güzəşt edilmir və edilməyəcək”.

# Həştərxan Dövlət Universitetində fəxri professorların portretləri qalereyası açılıb

## Azərbaycan Prezidenti İlham Əliyevin portreti qalereyada xüsusi yer tutur



Həştərxan Dövlət Universitetində (HDU) fəxri professorların portretləri qalereyası açılıb. AZƏRTAC xəbər verir ki, qalereyada Azərbaycan Prezidenti İlham Əliyevin portreti xüsusi yer tutur. Azərbaycan dövlətinin başçısına HDU-nun Fəxri professoru adı 2016-cı ildə bu ali məktəbin Elmi şurasının qərarı ilə verilib.

Portretləri qalereyanı bəzəyən doqquz fəxri professor arasında Moskvanın və bütün Rusiyanın Patriarxı Kirill, ABŞ-ın Klark Universitetinin nümayəndələri Con Basset və Tomas Messi, HDU-nun qocaman müəllimləri, siyasi və ictimai xadimlər var.

Bu layihə Həştərxan Dövlət Universiteti ilə rəssam Boris Medvedyevin əməkdaşlığı sayəsində həyata keçirilib. Layihənin davam etdirilməsi və qalereyaya digər fəxri professorların portretlərinin də əlavə edilməsi nəzərdə tutulur.

Xatırladaq ki, hazırda bu universitetin qırxdan çox fəxri professoru var.

## Ağsu, Şamaxı, Şabran və Yevlax rayonlarında əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Ağsu, Şamaxı, Şabran və Yevlax rayonlarının əhalisi 42678 nəfər olan 16 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 17 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə Azərbaycanın rayonlarında su təchizatının yaxşılaşdırılması məqsədilə subartezian quyularının qazılması üçün göstərilmiş vəsaitin 1,19 milyon (bir milyon bir yüz doxsan min) manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 sentyabr 2020-ci il*

***Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 2 sentyabr tarixli Sərəncamına Əlavə***

### Ağsu, Şamaxı, Şabran və Yevlax rayonlarında qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Rayonun, şəhərin adı | Quyuların sayı, ədəd | Yaşayış məntəqələrinin adı | Əhalinin sayı, nəfər |
|---|---|---|---|---|
| 1. | Ağsu | 3 | Qaraqaşlı kəndi | 1810 |
| | | | Qaraqoyunlu kəndi | 1665 |
| | | | Rəhimağalı kəndi | 136 |
| 2. | Şamaxı | 4 | Çuxuryurd kəndi | 1144 |
| | | | İkinci Çaylı kəndi | 551 |
| | | | Məlhəm kəndi | 1484 |
| | | | Mirikənd kəndi | 1198 |
| 3. | Şabran | 3 | Aygünlü kəndi | 1157 |
| | | | Padar kəndi | 581 |
| | | | Şabran şəhəri | 25469 |
| 4. | Yevlax | 7 | Hacımahmudlu kəndi | 631 |
| | | | Qaramanlı kəndi | 853 |
| | | | Qaraməmmədli kəndi | 2064 |
| | | | Malbinəsi kəndi (2 quyu) | 2570 |
| | | | Nəmirli kəndi | 389 |
| | | | Rüstəmli kəndi | 976 |
| **Cəmi** | | **17** | **16** | **42 678** |

# İqtisadiyyat naziri Mikayıl Cabbarovun gənclərlə görüşü keçirilib

**İqtisadiyyat naziri Mikayıl Cabbarovun "Heydər Əliyev siyasi məktəbini öyrənirik" Gənc Liderlər Proqramının iştirakçıları ilə videokonfrans formatında görüşü keçirilib.**









İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, açılış nitqi ilə çıxış edən Gənclər və İdman nazirinin müavini İntiqam Babayev Heydər Əliyev Mərkəzinin Gənclər və İdman Nazirliyi ilə birlikdə "Heydər Əliyev siyasi məktəbini öyrənirik" Gənc Liderlər Proqramını 2019-cu ildən başlayaraq həyata keçirildiyini, 2020-ci il üzrə proqramda iştirak etmək üçün 40 rayon və şəhərdən 350-dən artıq gəncin müraciət etdiyini bildirib.

Nazir müavini qeyd edib ki, rəhbər şəxslərlə görüşlərin məqsədi gənclərin dünya görüşünün formalaşması, müxtəlif sahələr üzrə həyata keçirilən dövlət siyasəti və gələcəyə baxış barədə daha ətraflı məlumatlandırılmasıdır.

Görüşdə İqtisadiyyat naziri Azərbaycanın inkişaf tarixində misilsiz rolu olan Heydər Əliyev irsinin öyrənilməsinin önəmini vurğulayıb, Ümummilli Liderin Azərbaycan iqtisadiyyatının inkişafı və dünya iqtisadiyyatına inteqrasiyası, ölkəmizə investisiyaların cəlb olunması, iqtisadi fəallığın bərpası və həyat səviyyəsinin yüksəldilməsi istiqamətində gördüyü genişmiqyaslı işlərdən bəhs edib. Heydər Əliyevin ölkəmizin sosial-iqtisadi inkişaf strategiyasının uzunmüddətli dövrə hesablandığını qeyd edən Mikayıl Cabbarov Ümummilli Liderin təşəbbüsü ilə Azərbaycanda yeni istehsal sahələrinin qurulduğunu, bir sıra böyük sənaye müəssisələrinin məhz respublikamızda inşasına nail olunduğunu, "Əsrin müqaviləsi"nin Azərbaycanın regionda və dünyada mövqeyini möhkəmləndirdiyini, iqtisadiyyatın bütün sahələrinin inkişafına zəmin yaratdığını diqqətə çatdırıb. Qeyd edilib ki, Heydər Əliyevin zamanın yeni çağırışlarını nəzərə almaqla həyata keçirdiyi islahatlar sahibkarlığın inkişafını, liberal iqtisadiyyatın, biznes və investisiya mühitinin formalaşdırılmasını təmin etdi. Azərbaycan beynəlxalq arenada yerini daha da möhkəmləndirdi, ölkəmizin gələcək tərəqqisi üçün möhkəm təməl yaradıldı. Azərbaycanın hərtərəfli inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilməsi nəticəsində ölkəmiz iqtisadi baxımdan regional liderə, Avropa və Asiya arasında əsas nəqliyyat-logistik mərkəzlərdən birinə çevrilib.

Nazir vurğulayıb ki, ölkəmizin sosial-iqtisadi inkişafında və beynəlxalq aləmdə mövqeyinin daha da möhkəmlənməsində gənclərin rolu daim yüksək qiymətləndirilir. "Qara qızıl"ın qeyri-neft sektorunun inkişafı üçün aparıcı qüvvə olan insan kapitalına çevrilməsinə istiqamətlənmiş uğurlu gənclər siyasəti nəticəsində Azərbaycan gəncliyi inkişafının mahiyyət və keyfiyyətcə yeni mərhələsinə qədəm qoyub. Bu gün rəqəmsallaşma və yeni nəsil, rəqabətqabiliyyətli gənc kadr potensialının formalaşdırılması Azərbaycan iqtisadiyyatının inkişafı üçün əsas çağırışlardandır. Gənclərin iqtisadi fəallığının artırılması və sahibkarlığın inkişaf etdirilməsinin önəmini qeyd edən İqtisadiyyat naziri bacarıqlı sahibkarların və idarəçilərin gələcəkdə ölkənin aparıcı qüvvəsinə çevriləcəyini qeyd edib və bunun üçün dövlət dəstək tədbirləri, həyata keçirilən proqramları diqqətə çatdırıb. Qeyd edilib ki, yeni nəsil idarəçilər üçün həyata keçirilən unikal "Yüksəliş" layihəsi də öz potensialına inanan gənclərə yeni imkanlar açır.

Mikayıl Cabbarov son illər Azərbaycan gənclərinin ictimai fəallığının yüksəldiyini, onların Azərbaycan diasporunun formalaşmasında fəaliyyətində yaxından iştirakını vurğulayaraq, gənclərimizin ölkəmizin iqtisadi qüdrətinin daha da artmasında daim ön sıralarda olacaqlarına əminliyini ifadə edib, gənclərə tövsiyələrini verib.

Sonda İqtisadiyyat naziri gəncləri maraqlandıran sualları cavablandırıb.

# Hamı qanun qarşısında bərabərdir



**Ölkəmizdə yeni növ koronavirus (COVID-19) infeksiyası qeydə alındığı ilk gündən etibarən xəstəliyin qarşısının alınması istiqamətində dünya ölkələri ilə bərabər, Azərbaycanda da aylardır ciddi addımlar atılır. Qlobal pandemiya ilə mübarizədə Prezident İlham Əliyevin rəhbərliyi ilə lazımi qabaqlayıcı kompleks tədbirlər görüldü.**

Ölkənin bütün resursları vətəndaşların sağlamlığının qorunmasına səfərbər edildi. Artıq yarım ilə yaxındır ki, möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi və ciddi nəzarəti altında əhalinin sağlamlığının qorunması və təhlükəsizliyinin təmin edilməsi məqsədilə koronavirus pandemiyası ilə mübarizə qətiyyətlə davam etdirilir, bu məsələyə kifayət qədər yüksək həssaslıqla yanaşılır.

Görülən qabaqlayıcı tədbirlər və tətbiq olunan məhdudiyyətlər öz müsbət nəticəsini verdi. Vaxtında və yüksək səviyyədə həyata keçirilən tədbirlər nəticəsində ölkəmiz bu qorxulu, müdhiş və son dərəcə çətin vəziyyətdən az itkilərlə çıxdı və koronavirusa qarşı mübarizədə yüksək nəticələr əldə etdi. Bu sahədə ölkəmizin təcrübəsi dünyada nümunə kimi göstərildi. Azərbaycan dünyada COVID-19 pandemiyası ilə ən uğurlu mübarizə aparan ölkələrdən biri kimi tanındı. Hazırda respublikamız pandemiyadan ən az zərər çəkən dövlətlər sırasındadır. Qısa müddətdə modul tipli yeni xəstəxanaların tikilib istifadəyə verilməsi, onların ən müasir tibbi avadanlıqlarla və xüsusi hazırlıq keçmiş ixtisaslı tibbi personalla təmin olunması buna canlı nümunədir.

Ölkə rəhbərinin bu məsələyə vaxtında çevik reaksiya göstərərək təxirəsalınmaz tədbirlər görməsi ilə gizli və gözəgörünməz düşmənlə mübarizədə uğurlara imza atıldı. Nazirlər Kabineti yanında Operativ Qərargah koronavirusa yoluxma və sağalma hallarında müsbət dinamikanı nəzərə alaraq yumşaldıcı tədbirlərin tətbiqi barədə qərar qəbul etdi.

Bununla yanaşı, təhlükə hələ sovuşmayıb. Kimliyindən, tutduğu vəzifəsindən və sosial mövqeyindən asılı olmayaraq hər bir kəs qanun qarşısında bərabərdir. Bu baxımdan yüksək rütbəli məmurlar, vəzifə sahibləri qanunvericiliyin tələblərinə və karantin qaydalarına xüsusilə ciddi əməl etməlidirlər. Heç bir vəzifəli şəxs öz statusundan istifadə edərək qanunları poza və onun tələblərinə hörmətsiz yanaşa bilməz. Əgər onlar qəbul edilmiş qanunları pozarlarsa, hüquq mühafizə orqanları tərəfindən mütləq ölçü götürüləcəkdir.

Koronavirusla mübarizə ümummilli məsələdir, heç kim tutduğu vəzifəsinə görə insanların həyatını təhlükəyə ata və onların sağlamlığına zərər yetirə bilməz. Yüksək və məsul vəzifə daşıyan şəxslər baş verən qanunsuzluqlara görə mənəvi məsuliyyət daşıyırlar.

Qanunlara ciddi əməl etmək hər bir şəxsin mənəvi borcu və vətəndaşlıq vəzifəsidir. Hər kəs başa düşməlidir ki, bu cür əməllərə yol verənlər mütləq şəkildə məsuliyyətə cəlb ediləcək və qanun çərçivəsində barələrində cəza tədbirləri görüləcəkdir. Avqustun 31-də Azərbaycan Prezidenti İlham Əliyev Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalının açılışında videoformatda iştirak edərkən bu barədə demişdir: "Əfsuslar olsun ki, bu gün hələ də vəziyyəti dərk etməyənlər, məsuliyyətini itirmiş insanlar mövcuddur və qaydaların kobudcasına pozulması halları vardır. Belə hallar aşkarlananda təbii ki, cəza tədbirləri də mütləq olmalıdır və tətbiq edilir. Cəza tədbirləri bütün kateqoriya insanlara tətbiq edilir. Heç bir ayrı-seçkiliyə yol verilməməlidir və verilmir. İctimai vəziyyətinə, ictimai statusuna baxmayaraq, hamı qanun qarşısında bərabərdir".

Prezident bildirmişdir ki, Azərbaycanda bərabərlik, ədalət və qanunun aliliyi əsas prinsiplərdən biridir: "Mən bütün vətəndaşları məsuliyyətə çağırıram. Birincisi, özlərini, öz yaxınlarını qorumaq üçün daha məsuliyyətli olmalıdırlar. Digər tərəfdən, qaydaları pozanlar, böyük kütləvi tədbirlər təşkil edənlər və beləliklə, ölkə qanunları ilə və mövcud olan qaydalarla nümayişkaranə hesablaşmayanlar mütləq öz cəzasını alacaq və alır. İctimaiyyət də bu məsələ ilə bağlı məlumatlandırılır. Hesab edirəm, Azərbaycan vətəndaşları yaxşı görürlər ki, qanun hər kəs üçün qanundur. Heç kim qanundan üstün ola bilməz, heç kimdə heç bir imtiyaz ola bilməz və heç kimə heç bir güzəşt edilmir və edilməyəcək. Görülmüş bütün işlər bir məqsədi güdür ki, bu vəziyyətdən az itkilərlə çıxaq və hesab edirəm ki, biz buna nail oluruq. Hər şey müqayisə ilə ölçülür. COVID-lə bağlı dünya statistikasına baxdıqda görürük ki, ölkəmizdə əldə edilmiş nəticələr doğrudan da çox təsirlidir, çox dəyərlidir. Mən hesab edirəm ki, məhz bu tədbirlər nəticəsində biz minlərlə insanın həyatını qoruduq".

İnam var ki, möhtərəm Prezident İlham Əliyevin tövsiyələrini əldə rəhbər tutan ölkəmizin vətəndaşlarının məsuliyyəti imkan verəcəkdir ki, ölkəmiz bu ağır vəziyyətdən az itkilərlə çıxsın və daha tez bir zamanda normal, adi həyata qayıtsın.

***Səbinə XASAYEVA,***
***Milli Məclisin deputatı***

# İlham Əliyev böhran şəraitində də sosial öhdəlikləri reallığa çevirir

*Əvvəli 1-ci səh.*

Nəticədə böhran şəraitində, iqtisadiyyatın tənəzzülü fonunda belə ötən illə müqayisədə 2020-ci ildə bu istiqamətdə daha çox layihə reallaşıb və bu gün də davam etməkdədir.

Əgər 2018-ci ildə şəhid ailələri və müharibə əlillərinə 626, 2019-cu ildə 934 mənzil və ya fərdi ev tikilmişdisə, bu ilin 7 ayı ərzində 554 mənzil tikilərək təhvil verilib. Prezident İlham Əliyev vurğulayıb ki, bu il rekord sayda 1500 mənzil və fərdi ev həmin kateqoriyadan olan insanlara veriləcək. Ümumilikdə, indiyədək bu ailələr üçün 8142 mənzil və fərdi ev tikilib.

Bu il, həmçinin məcburi köçkün ailələri üçün də şəhərciklər salınıb, fərdi evlər tikilib. Dövlət başçısı bu il 7 mindən çox məcburi köçkün ailəsinin mənzillərlə təmin ediləcəyini vurğulayıb. Əlbəttə, bu, bir daha təsdiq edir ki, cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqəti, qayğısı nəticəsində ölkəmizdə məcburi köçkünlərin, şəhid ailələrinin, Qarabağ müharibəsi əlillərinin sosial-məişət şəraitinin yaxşılaşdırılması, onların mənzillə və fərdi evlərlə təminatı proqramı ildən-ilə genişlənir.

### Böhran dövründə Heydər Əliyev Fondunun reallaşdırdığı sosial layihələr

Bu gün böhran şəraitində həm paytaxt Bakıda, həm də respublikanın bölgələrində bir çox sosial layihələr reallaşmaqdadır. Prezidentin bölgələrə səfərləri çərçivəsində açılışını etdiyi obyektlər əlbəttə ki, bunu təsdiqləyən reallıqdır.

Ölkəmizdə sərt karantin rejiminin tətbiq olunduğu son aylarda dövlət tərəfindən həyata keçirilən tədbirlərə dəstək məqsədilə Heydər Əliyev Fondunun reallaşdırdığı sosial layihələr də son dərəcə əhəmiyyətlidir. Mehriban xanım Əliyevanın göstərişi ilə fond ölkədə elan edilən karantin müddətində "Biz birlikdə güclüyük!" şüarı ilə xeyriyyə aksiyaları keçirdi. Bu aksiyalar çərçivəsində 200 mindən çox ailəyə ərzaq məhsullarından ibarət sovqatların paylanılması da bir daha fondun humanist missiyasını nümayiş etdirdi.

Birinci vitse-prezidentin fəaliyyətində ən mühüm məqamlardan, istiqamətlərdən birini, bəlkə də birincisini aztəminatlı ailələr, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri, qaçqın və məcburi köçkünlərlə bağlı məsələlər təşkil edir. Mehriban xanım Əliyeva hər il bir neçə dəfə şəhid ailələri, Qarabağ müharibəsi iştirakçıları, məcburi köçkünlərlə görüşür, onların problemlərinin həlli istiqamətində mühüm işlər görür. Məhz pandemiya ilə mübarizə dövründə, bu ilin may ayında "Qobu Park-3" yaşayış kompleksinin istifadəyə verilməsi, iyulun 21-də Bakının Xətai rayonunda şəhid ailələrinə, müharibə əlillərinə ümumilikdə 62 mənzil, 50 avtomobilin verilməsi də bunu təsdiqləyən reallıqdır.

Avqustun 26-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Bakının Xəzər rayonunun Buzovna qəsəbəsində yenidən tikilən 99 mənzildən ibarət yeddimərtəbəli yataqxana binasının açılışı isə təsdiq etdi ki, köməyə ehtiyacı olan vətəndaşların problemləri daim diqqət mərkəzində saxlanılır.

Qeyd edək ki, həmin yataqxana binası "Azəriqaz" QSC-nin "Bakqazmaş" zavodunun qəzalı vəziyyətdə olan beşmərtəbəli yataqxanasının yerində inşa edilmişdir. Mehriban Əliyevanın göstərişi ilə Heydər Əliyev Fondunun nümayəndələri 2019-cu il noyabrın 11-də qəzalı vəziyyətdə olan binaya baxış keçirmiş və sakinlərlə görüşmüşdülər. Həmin vaxt binanın qəzalı və yaşayış üçün təhlükəli vəziyyətdə olduğu müəyyənləşdirilmişdir. Sakinlər dərhal kirayə mənzillərə yerləşdirilmiş, 2019-cu ilin dekabr ayından etibarən 8 ay ərzində inşaat işləri aparılmış və beləliklə, fondun layihəsi çərçivəsində bina yenidən tikilərək sakinlərinə təhvil verilmişdir.

Həmin gün Bakının Suraxanı rayonunda görkəmli rəssam Səttar Bəhlulzadənin adını daşıyan Mədəniyyət evinin açılışı da Birinci vitse-prezidentin hər zaman mədəniyyətimizin zəngin ənənələrinin qorunması işinə töhfə verdiyini və bu xoşməramlı missiyasının bu gün də davam etdiyini təsdiqlədi.

1926-cı ildə inşa edilmiş bina Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı təmir olunub. Ümumi sahəsi 8662 kvadratmetr olan dördmərtəbəli binada rəqs ansamblı, vokal-instrumental qrup fəaliyyət göstərir. Burada 612 tamaşaçı yeri olan konsert-tamaşa zalı və universal səhnə, rəqs ansamblının və orkestrin məşq zalları, solistlər üçün məşq və qrim otaqları, multimedia mərkəzi, səsyazma studiyası, sərgi salonu, dərnək otaqları, texniki və köməkçi təyinatlı otaqlar yaradılıb.

Son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə təhsil sahəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni təhsil ocaqlarının inşası, mövcud məktəb binalarının müasir səviyyədə yenilənməsi baxımından çox mühüm layihələr icra olunub. Dövlət səviyyəsində bu istiqamətdə görülən işlərə Heydər Əliyev Fondu da böyük töhfələr verib. Fondun təhsil sahəsində gördüyü işlər sırasında respublikamızın müxtəlif bölgələrində reallaşdırılan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı müstəsna əhəmiyyət daşıyıb. Proqram təhsilin səviyyəsinə birbaşa təsir edən problemlərin həllinə - tədris prosesinin günün tələbləri səviyyəsində qurulmasına imkan verən müasir məktəb binalarının inşasına istiqamətlənib.

Bakının Xəzər rayonunun Qala qəsəbəsindəki 216 nömrəli tam orta məktəbin binası da bu proqram çərçivəsində yenidən inşa olunub. Avqustun 26-da dövlət başçısı və Mehriban Əliyevanın iştirakı ilə açılışı olan tam orta məktəb 624 şagird yerlikdir. Təhsil müəssisəsində 24 sinif otağı, kimya, biologiya, fizika laboratoriyaları, əmək otaqları, hərbi hazırlıq otağı, informatika kabineti, idman və akt zalları, kitabxana və yeməkxana fəaliyyət göstərir. Məktəbdə videomüşahidə sistemi və fiber-optik internet quraşdırılıb.

Fondun "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində inşa olunan bu təhsil müəssisəsinin həyətində geniş abadlıq işləri aparılıb.

### Ölkəmiz istənilən böhranla mübarizəyə hazırdır

Göründüyü kimi, öz missiyasını uğurla davam etdirən Heydər Əliyev Fondunun 16 illik fəaliyyəti bütün sahələrə qayğı nümunələri ilə zəngindir. Ümumxalq mənafeləri baxımından bir sıra strateji layihələri qısa müddətdə uğurla gerçəkləşdirən Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti nəcib dəyərlərə söykənir.

Qeyd olunanlar bir daha təsdiqləyir ki, Mehriban xanım Əliyeva Azərbaycanın Birinci vitse-prezidenti statusunda uğurlu fəaliyyətini inamla davam etdirir, Prezident İlham Əliyevin həyata keçirdiyi sosial siyasətə mühüm töhfələr verir. Əgər Mehriban Əliyevanın bu çərçivədə gördüyü işləri təhlil etsək, əmin olarıq ki, onun çoxşaxəli və geniş əhatəli fəaliyyəti ölkəmizin bugünkü inkişafında çox böyük çəkiyə malikdir.

Hər bir dövlətin əsas funksiyalarından biri əhalinin sosial müdafiəsinin təşkili, maddi nemətlərin ədalətli bölgüsünün təmin edilməsi və daxili siyasətin sosialyönümlülüyünün ön planda saxlanılmasıdır. İstənilən dövlətin sosial-iqtisadi inkişafının qiymətləndirilməsində nəzərə alınmalı olan faktorlardan biri məhz əhalinin sosial rifahının yüksəlməsi amilidir.

Son 17 ildə Azərbaycanda bu istiqamətdə həyata keçirilən dövlət siyasəti göz önündədir. Bu, təkcə ölkə ictimaiyyəti deyil, həm də beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilib. Bütün bunlar onu deməyə əsas verir ki, bu siyasət ardıcıl və davamlıdır. Ən əsası odur ki, bunun üçün siyasi iradə və ölkənin kifayət qədər maliyyə imkanı var.

Bir sözlə, Azərbaycan dövləti öz iqtisadi imkanlarından yararlanmaqla həm qlobal böhrandan az itki ilə çıxmaq istiqamətində mühüm proqramlar hazırlayır, həm əhalinin sağlamlığının qorunması, həm də sosial rifah halının yaxşılaşdırılması istiqamətində mühüm layihələr reallaşdırır. Bu da Azərbaycanın istənilən böhranla mübarizəyə qadir ölkə olduğunu bir daha təsdiqləyir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***





# Məlumat həqiqətə uyğun deyildir

**Bu gün bəzi kütləvi informasiya vasitələrində Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini Tahir Kərimliyə istinadən parlamentin payız sessiyasında "uşaq pulu" məsələsinin müzakirəyə çıxarılacağına dair məlumatlar yayımlanıb.**

Qeyd olunur ki, guya, bir müddət əvvəl Milli Məclisin Sədri Sahibə Qafarova "uşaq pulu"nun bərpasının müzakirəsi üçün parlamentdə işçi qrupun yaradılması barədə göstəriş verib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi olaraq bildiririk ki, ictimaiyyətə təqdim edilən bu məlumat həqiqətə uyğun deyil və heç bir əsası yoxdur.

***Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi***

# Azərbaycanın Müdafiə naziri Moskvada beynəlxalq tədbirdə iştirak edəcək

**Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Müstəqil Dövlətlər Birliyi iştirakçı-dövlətləri və Şanxay Əməkdaşlığı Təşkilatı üzv-dövlətləri Müdafiə nazirlərinin sentyabrın 4-də keçiriləcək görüşündə iştirak etmək üçün Moskvaya yola düşəcək.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfər sentyabrın 6-dək davam edəcək.

# Baş Prokurorluğun "Instagram"dakı səhifəsində növbəti sual-cavab sessiyası sentyabrın 11-də keçiriləcək

Sentyabrın 11-də saat 09:00-dan 13:00-dək Baş Prokurorluğun "Instagram" sosial şəbəkəsindəki səhifəsində prokurorluqla bağlı növbəti sual-cavab sessiyası keçiriləcək. Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, vətəndaşlar sessiyada iştirak edərək maraqlandıqları mövzularda suallarla müraciət edə bilərlər.

Qeyd edək ki, Azərbaycan Respublikasının prokurorluq orqanları tərəfindən müasir, vətəndaş yönümlü və onu məmnun edən tədbirlərin həyata keçirilməsi xüsusilə diqqət mərkəzində saxlanılır. Bu tədbirlərin davamı kimi vətəndaş məmnunluğunun və aşkarlığın təmin edilməsi məqsədilə prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı sosial şəbəkə səhifələrindən daxil olmuş çoxsaylı suallar mütəmadi qaydada cavablandırılır.

# Azərbaycanın Müdafiə Nazirliyi Rusiyanın "Nezavisimaya qazeta" nəşrində yayılan qərəzli yazıya münasibət bildirib

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Rusiyanın "Nezavisimaya qazeta" nəşrinin 1 sentyabr tarixli elektron versiyasında yayımlanan "Azərbaycandakı suriyalı döyüşçülər Ermənistana qarşı blitskriqə hazırlaşır" sərlövhəli qərəzli məqaləyə münasibət bildirib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məqalədə oxuculara həqiqətə tam uyğun olmayan məlumat təqdim edilib. Məqaləyə sanki "yalan nə qədər çox və eybəcər olarsa, o qədər inandırıcıdır" prinsipi ilə yanaşan müəllif Vladimir Muxin heç bir etibarlı mənbəyə istinad etmədən, əsaslı faktlar gətirmədən oxucuları çaş-baş salır. Məqalədə, guya, Naxçıvanda döyüş təyyarələri ilə gücləndirilmiş Türkiyənin hərbi bazasının olması, Azərbaycana 500 nəfərə yaxın türkmən əsilli suriyalı döyüşçünün gətirilməsi barədə həqiqətə uyğun olmayan uydurmaları qəti surətdə rədd edirik.

Məqalədə yer alan əsassız iddialar, xüsusilə də, guya, Azərbaycana Suriyadan döyüşçülərin gətirilməsi barədə xəbər açıq-aydın dezinformasiyadır və heç bir halda reallığı əks etdirmir. Məqalənin sifarişli olduğu aydın sezilir, yazılanlar düşünülmüş və böhtan xarakteri daşıyır.

Müdafiə Nazirliyi olaraq rəsmi surətdə bildiririk ki, Azərbaycan ərazisində nə hər hansı xarici ölkənin hərbi bazası, nə də heç bir digər qeyri-qanuni silahlı birləşmə yoxdur. Azərbaycan Ordusunun şəxsi heyətinin peşəkarlığı və döyüş təcrübəsi, silahlanmada olan hərbi texnika və döyüş vasitələri Ermənistan tərəfindən işğal edilmiş torpaqlarımızı azad edərək ölkəmizin ərazi bütövlüyünü bərpa etmək məqsədilə qarşıya qoyulan istənilən döyüş tapşırığını qısa zamanda yerinə yetirməyə kifayət edir. Bunu Azərbaycan Ordusu 2016-cı ilin Aprel döyüşlərində, 2018-ci ildə Naxçıvan və 2020-ci ildə isə Tovuz istiqamətində həyata keçirilən əməliyyatlarda nümayiş etdirdi.

"Nezavisimaya qazeta"ya tövsiyə edirik ki, diqqəti Ermənistanda ictimai müzakirəyə çıxarılan "Müdafiə haqqında" qanuna əlavələr edilməsi məsələsinə yönəltsələr, daha yaxşı olardı. Çünki bu qanun səfərbərlik ehtiyatları problemi ilə üzləşən Ermənistanı könüllülük əsasında silahlı dəstələrin formalaşdırılması sistemini yaratmağa məcbur etməklə 70 yaşadək insanları belə silahlandırmağa imkan verir. Qanun qüvvəyə mindikdən sonra Ermənistan könüllülük adı altında Yaxın Şərqin qaynar nöqtələrindən, xüsusilə Suriya və Livandan gətirilən muzdlu döyüşçülər və terrorçularla öz ordusunun komplektləşdirilməsi məsələsini qanuniləşdirmiş olacaq.

Bu cür dezinformasiyaların yayılmasında maraqlı olan rəsmi Yerevan regionda vəziyyətin yenidən gərginləşərək münaqişənin alovlanmasına və buraya daha çox tərəflərin cəlb olunmasına münbit şərait yaratmağa çalışır", - deyə Müdafiə Nazirliyinin açıqlamasında qeyd edilib.

# Vətəndaşın Baş Prokurorluğun "Instagram"dakı səhifəsinə müraciəti əsasında cinayət işi başlanıb

Avqustun 31-də "fatih_turan_1977" adlı istifadəçinin "Instagram"dakı "Prokurorluq" səhifəsinə müraciəti Baş Prokurorluğun Mətbuat xidməti tərəfindən vətəndaşın müraciətinin operativ həlli və müraciətə baxılması zamanı çevikliyin təmin olunması məqsədilə dərhal Baş Prokurorluğun rəhbərliyinə, o cümlədən əlaqədar idarələrə təqdim edilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müraciət nəzarətə götürülüb və araşdırma aparılması barədə göstəriş verilib. Həmin göstəriş əsasında paytaxtın Xətai rayonu ərazisində yaşayan Türkiyə vətəndaşı Turan Fatih Hüseyn oğlu Abşeron Rayon Prokurorluğuna dəvət edilərək dinlənilib. F.Turan Vüsal və Sürxan adlı şəxslərin onun 15 min manat pulunu dələduzluq yolu ilə ələ keçirmələri ilə bağlı Abşeron Rayon Polis İdarəsinin Mehdiabad polis bölməsinə müraciəti əsasında aparılmış araşdırmanın nəticəsindən narazı olduğunu, dələduzluq faktına görə obyektiv araşdırma aparılmaqla ona dəymiş ziyanın ödənilməsində kömək göstərilməsini xahiş edib.

Toplanmış materiallar rayon prokurorluğu tərəfindən tələb edilərək öyrənilib. Material üzrə cinayət işinin başlanmasının rədd edilməsinə dair qərar ləğv olunmaqla fakta görə Cinayət Məcəlləsinin 178.2.4-cü (xeyli miqdarda ziyan vurmaqla dələduzluq) maddəsi ilə cinayət işi başlanılaraq, ibtidai istintaqın aparılması üçün Abşeron Rayon Polis İdarəsinin istintaq şöbəsinə göndərilib.

Hazırda cinayət işi üzrə intensiv istintaq tədbirləri aparılır. Qanun pozuntularına yol vermiş və cinayətin törədilməsində bu və ya digər formada iştirak etmiş şəxslər cinayət məsuliyyətinə cəlb olunacaqlar.

# Atəşkəs rejimi 30 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Berd rayonunun Ayqepar və Mosesqex kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli və Ağdam kəndlərində, Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində, Yeğeqnadzor rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Günnüt kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# Prezidentə yüksək inam və etibar

## Bu, əmin-amanlığın, iqtisadi-siyasi və mənəvi yeniləşmənin, qanunçuluğun və yeni hakimiyyət quruculuğu siyasətinin başlıca təminatıdır

***Əvvəli 1-ci səh.***

AZƏRTAC xəbər verir ki, "İnam İndeksi" nəşrinin üçüncü buraxılışı Azərbaycan Prezidentinin ilin ikinci rübündəki - aprel, iyun ayları ərzindəki fəaliyyətinə həsr edilib.

İctimai rəyin tədqiqi göstərir ki, son 5 ayda dünyada hökm sürən koronavirus pandemiyasına qarşı mübarizədə siyasi liderlik, dövlətin potensial resurs, güc və imkanlarını səfərbər etmək bacarığı, ictimai inam və etimadın qorunub saxlanması milli birliyin təmin olunmasının başlıca şərtinə çevrildi.

Sosial Tədqiqatlar Mərkəzi eyni zamanda "Pandemiya ilə mübarizədə dövlətin antiböhran siyasəti ictimai rəydə" mövzusunda ictimai rəy sorğusu əsasında böyük tədqiqat işi hazırlayıb. Azərbaycan dövlətinin koronavirus (COVID-19) pandemiyası ilə mübarizə çərçivəsində qəbul etdiyi antiböhran strategiyası, müvafiq dövlət siyasətinin ictimai rəy əsasında qiymətləndirilməsi hökumətin qarşıdakı dövr üçün qərarlarının planlaşdırılmasında əhəmiyyətli rol oynayır.

Analitik hesabatda dövlətin yaxın dövrdə pandemiyanın makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması məqsədilə həyata keçirdiyi təxirəsalınmaz sosial dəstək tədbirlərinə münasibət göstəriciləri ictimai rəy əsasında qiymətləndirilir.

Hər iki hesabatın ictimai təqdimatı üçün təşkil edilən brifinqi giriş sözü ilə açan Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri **Zahid Oruc** bildirib ki, Prezidentə inam və etibar əmin-amanlığın, iqtisadi-siyasi və mənəvi yeniləşmənin, qanunçuluğun və yeni hakimiyyət quruculuğu siyasətinin başlıca təminatıdır.

Z.Oruc daha sonra deyib: "Dünyada koronavirus pandemiyası təkcə ölkələrin iqtisadiyyatını, sosial rifahını, daxili və xarici əlaqələrini, bir sözlə, ictimai həyatın bütün sahələrini əhatə etdiyi kimi, ilk növbədə, dövlət rəhbərlərini, siyasi liderləri çətin sınaqlar qarşısında qoydu. Ötən aylar göstərdi ki, ölkə başçıları pandemiya təhlükəsinə müxtəlif vaxtlarda və formalarda reaksiya verməklə həm tarixi siyasi şəxsiyyətlərdən, həm də müasir dövrün peşəkar idarəçilərindən kəskin şəkildə fərqləndilər. Əlbəttə, bütün bunların nəticəsi olaraq indi müxtəlif qitələrdə saysız-hesabsız suallar irəli sürən cəmiyyətlərin xüsusi davranışlarını görürük: "Onlar soruşurlar ki,

* "Böhran şəraitində liderlər nə dərəcədə milli birliyi təmin edə bildilər?
* "Öz millətinin taleyini üzərinə götürərək daxili və beynəlxalq əməkdaşlıq şəraitində, milli sərhədlər daxilində mərkəzi hakimiyyətin, yəni dövlətin vahidliyini nə dərəcədə qoruyub saxlamağa nail oldular?
* "Xalqın sağlamlığını və təhlükəsizliyini qorumaq üçün məsuliyyəti öz çiyinlərində saxlayan rəhbərlər onu müxtəlif dövlətlərin, hökumətlərin və yerli orqanların üstünə atmaq deyil, əksinə, onların monolitliyini təmin edə bildilərmi?
* "Hər bir xalqın, ayrıca fərdin davranışlarında baş qaldıran yeni sosial-psixoloji və siyasi dəyişikliklərə - əksər hallarda özünü qabarıq göstərən millətçilik və tarixi yaddaşın oyanması fonunda pandemiyadan tədricən çıxmaq kursunu seçərək iqtisadiyyatın, sosial həyatın, iş yerlərinin və məşğulluğun, bir sözlə, normallaşma tədbirlərinin hesabına ictimai əmin-amanlığı və sülhü qorumaq mümkün oldumu?"

STM rəhbəri qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti dünya tarixinin ən böyük sınaqlarından, bir sıra hallarda "müharibə" adlandırılan çətin imtahanından öz xalqının çıxarılması üçün bütün təhlükələri üzərinə götürməyi, qeyri-standart şəraitdə meydana gələn çağırışları və problemləri həll etməyi bacardı, böhrana qarşı yeni keyfiyyətdə dayanıqlı xarakter, möhkəm iradə göstərdi və buna görə də onun xarizması, nüfuzu xalq içərisində güclü olaraq qalır. Bu nüfuz əmin-amanlığın, iqtisadi-siyasi və mənəvi yeniləşmənin, qanunçuluğun və ən başlıcası 2019-cu ildən daha böyük miqyasda həyata keçirilən yeni hakimiyyət quruculuğu siyasətinin başlıca təminatıdır. Eyni sözləri Mehriban xanım Əliyeva haqqında da söyləmək mümkündür. Ötən illərdə olduğu kimi, son 5 ayda da Mehriban xanım dövlət və milli həyatın bütün sahələrində Prezidentlə çiyin-çiyinə addımladı və hər zaman xalqın yanında oldu.

Sədr daha sonra deyib ki, Azərbaycan Respublikası Prezidentinin fəaliyyəti ilə bağlı ictimai rəyin öyrənilməsi və dinamikasının izlənilməsinə, məlum olduğu kimi, ilk olaraq Sosial Tədqiqatlar Mərkəzi tərəfindən başlanılıb: "Təqdim edilən növbəti hesabat bu silsilədən 3-cü tədqiqat işidir, 2020-ci ilin ikinci rübünü - aprel-iyun aylarını əhatə edir. Sosioloji sorğu əsasında hazırlanmış analitik hesabatda ölkə Prezidentinin bəhs edilən müddətdə həyata keçirdiyi çoxşaxəli fəaliyyətinə ictimai münasibətin monitorinqi, əvvəlki dövrlə müqayisəli dinamikası və təhlili öz ifadəsini tapıb.

Hesabatdan da görünür ki, qeyd olunan zaman intervalında dünyəvi sınaqdan qətiyyətlə çıxan ölkələr yeni reallığın tələb etdiyi islahatlarla daha da güclənəcək. Digər qrup ölkələr isə, əksinə, zəif rəhbərliyinə görə ağır vəziyyətə düşəcək, yoxsulluq, qeyri-sabitlik və iqtisadi durğunluqla üzləşəcəklər. Narahatlıq doğuran məqam həm də odur ki, ikinci qrup ölkələrin sayı birincilərdən daha çox olacaq.

İctimai rəy sorğusunun nəticələrinə əsaslanmaqla uğur qazanan və sınaqdan çıxan dövlətlər arasında Azərbaycanın olmasını əminliklə söyləyə bilərik.

Bunu deməyə əsas verən dünyada pandemiyanın başladığı bir ilə yaxın müddətdə tədqiqatçı və ekspertlərin pandemiya ilə uğurlu mübarizəni müəyyən edən 3 əsas amili aşkara çıxarmasıdır:

1. Siyasi lider amili;
2. Dövlətin potensial resurs, güc və imkanları;
3. İctimai inam və etimadın mövcudluğu.

Pandemiya böhranından çıxmağa və sonrakı güclü inkişafa təkan verəcək bu "uğur amilləri"nin 3 sütununa malik olan ölkələrdə vətəndaşların etibar etdiyi və güvəndiyi siyasi liderlər çevik strateji idarəçiliyi bərqərar etməklə pandemiyanın vurduğu zərbələri neytrallaşdırmağa qabil olurlar. Qarşılıqlı etimadın və milli birliyin olduğu cəmiyyətlərdə bu keyfiyyətlər koronavirus fonunda tamamilə yeni dəyər yaradır, milli gücə çevrilir".

STM sədri yekunda bildirib ki, pandemiya zamanı ölkələr siyasi-əxlaqi, mənəvi seçimlərlə üz-üzə qaldı. "Vətəndaşların sağlamlığının, yoxsa iqtisadiyyatın xilas ediləcəyini" seçim edərkən müxtəlif dövlətlər müxtəlif seçimlər etdilər. Azərbaycanın dövlət başçısı bəyan etdi ki, insanların həyatından vacib heç nə ola bilməz. Beləliklə, Azərbaycan rəhbərliyinin vətəndaşların sağlamlığını, rifahını və təhlükəsizliyini strateji prioritet olaraq önə çəkməsi yaranmış vəziyyətdə verilmiş ən düzgün qərarlardan oldu.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bütün antiböhran fəaliyyətinin məzmunu - iqtisadi dəstək proqramları, sosial paketlərdən tutmuş səhiyyə infrastrukturunun adaptasiya və modernləşməsinə, yeni klinikaların inşasına qədər həyata keçirilən tədbirlər məhz bu məqsədə - vətəndaşın ali dəyər kimi mərkəzdə durmasına xidmət edir.

STM İdarə Heyətinin sədr müavini **Elşad Mirbəşiroğlu** çıxışında "İnam İndeksi"nin müxtəlif aspektlərindən bəhs edib və bildirib ki, ölkə Prezidentinin fəaliyyətinin prioritet istiqamətlərindən birini ordu quruculuğu təşkil edir. Silahlı Qüvvələrə xüsusi diqqətin ayrılmasını təbii ki, hər şeydən öncə ölkəmizin müharibə şəraitində olması şərtləndirir. Keçirilmiş sorğunun nəticələri aydın göstərdi ki, əhali ordu quruculuğu istiqamətində Prezidentin fəaliyyətini kifayət qədər yüksək qiymətləndirir: "Belə ki, rəyi soruşulanların 70,7 faizi, yəni mütləq çoxluğu ölkə Prezidentinin ordu quruculuğu istiqamətindəki fəaliyyətinin çox səmərəli olduğunu düşünür. 24,6 faiz respondent isə bu istiqamətdə dövlət başçısının fəaliyyətini əsasən səmərəli hesab edir. Əks mövqedən çıxış edən vətəndaşların faiz dərəcəsi 2,5-ə bərabərdir. Ordu quruculuğu istiqamətində səmərəli fəaliyyət ölkə Prezidentinə olan inam və etimadın artmasını şərtləndirən əsas amil rolunda çıxış edir. Belə ki, Prezidentə olan inam və etimadın artdığını bildirən 24,6 faiz respondentin 82 faizi ordu quruculuğu istiqamətində onun fəaliyyətini çox müsbət qiymətləndirir. Hətta inam və etimadın azaldığını bildirən 2,6 faiz respondentin 27,6 faizi də ordu quruculuğu istiqamətindəki fəaliyyəti müsbət qiymətləndirir".

Sədr müavini deyib ki, beynəlxalq və milli səviyyədə yeni çağırışlar, inkişaf hədəfləri dövlət idarəçiliyi sahəsində çevikliyin və səmərəliliyin artırılmasını zəruri edir. Bu istiqamətdə vacib həll yolu kimi kadr islahatları daim dövlət başçısının diqqət mərkəzindədir. Prezidentin həyata keçirdiyi kadr islahatları respondentlərin 53,9 faizi tərəfindən çox səmərəli, 32 faizi tərəfindən isə əsasən səmərəli kimi qiymətləndirilir. 6,5 faiz respondent kadr islahatlarını səmərəli hesab etmir. Prezident tərəfindən həyata keçirilən kadr islahatları da ona olan inam və etimadın artmasında təsirli rol oynayıb. Belə ki, Prezidentə olan inam və etibarın artdığını bildirən 24,6 faiz respondentin 68,6 faizi kadr islahatlarını yüksək qiymətləndirib. İnam və etimadın azaldığını bildirən 2,6 faiz respondentin isə 8 faizi kadr islahatlarını müsbət qiymətləndirib. Dövlət başçısının həyata keçirdiyi kadr islahatlarını çox səmərəli hesab edənlərin 81,2 faizi onun korrupsiya ilə mübarizə sahəsindəki təşəbbüslərini də dəstəklədiyini bildirir. Kadr islahatlarını mənfi qiymətləndirənlərin də əhəmiyyətli hissəsi - 74,3 faizi korrupsiya hallarına yol verən vəzifəli şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsinin doğru olduğu qənaətindədir".

"Ölkədə xüsusilə də son dövrlərdə korrupsiyaya qarşı mübarizə intensiv xarakter alıb. Həyata keçirilən həm kadr islahatlarının, həm də institusional islahatların əsas hədəflərindən biri də məhz korrupsiya hallarının qarşısının alınmasından ibarətdir. Bu istiqamətdə ölkə Prezidentinin fəaliyyəti 56,1 faiz respondent tərəfindən çox səmərəli, 27,2 faiz respondent tərəfindən isə əsasən səmərəli qiymətləndirilib. Bununla yanaşı, korrupsiyaya qarşı mübarizə sahəsində cəmiyyətdə hələ müəyyən gözləntilərin qaldığı müşahidə olunur. Belə ki, rəyi soruşulanların 12,3 faizi sözügedən istiqamətdə görülən işlərin çox da səmərəli olduğunu düşünmür. 4,4 faiz respondent isə fikir bildirməkdə çətinlik çəkib. Korrupsiyaya qarşı mübarizə istiqamətində həyata keçirilən fəaliyyətə müsbət münasibət bildirən 56,1 faiz respondentin 36,5 faizi Nazirlər Kabinetinə, 33,4 faizi isə Milli Məclisə etibar etdiyini qeyd edib".

E.Mirbəşiroğlu qeyd edib ki, ölkə Prezidentinin təhlükəsizlik və xarici siyasət sahələrində atdığı çevik strateji addımlar daim diqqəti cəlb edir. Hazırkı mərhələdə Azərbaycan beynəlxalq münasibətlər sistemində kifayət qədər ciddi mövqelərə malik olmaqla, çoxistiqamətli səmərəli əməkdaşlıq sistemini qura bilib. Sosial Tədqiqatlar Mərkəzi tərəfindən rəyi soruşulanların əksəriyyəti də bu qənaəti bölüşür. Belə ki, respondentlərin 54 faizi təhlükəsizlik və xarici siyasət istiqamətində Prezidentin fəaliyyətini çox səmərəli, 28,9 faizi, əsasən, səmərəli hesab edir. Əks mövqe bildirənlər isə rəyi soruşulanların 6,5 faizini təşkil edir. Sözügedən istiqamətdə cavab verməkdə çətinlik çəkənlərin faiz dərəcəsində yüksəlmə müşahidə olunub. Belə ki, 10,7 faiz respondent təhlükəsizlik və xarici siyasət istiqamətində fəaliyyətlə bağlı sualı cavablandırmaqda çətinlik çəkib.

Sosial Tədqiqatlar Mərkəzinin Sosial-iqtisadi təhlil departamentinin rəhbəri **Seymur Əliyev** çıxışında bildirib ki, təbii fəlakətlərdən (indiki halda pandemiyadan) qaynaqlanan böhranlarla mübarizə strategiyaları çərçivəsində verilmiş qərarlar iki mərhələ üçün hesablanır. Birinci mərhələ qısamüddətli dövr üçün nəzərdə tutulmuş və böhranın yaratdığı günlük təsirləri qarşılamaq kontekstində reaktiv böhran idarəçiliyinin elementlərinə əsaslansa da, ikinci mərhələdə orta və uzunmüddətli dövrə fokuslanan tədbirlər böhran yaradan faktorların təhlili əsasında səbəblərin aradan qaldırılması və təkrarlanmaması məqsədilə həyata keçirilən proaktiv strategiyalardan ibarətdir: "Sözügedən tədqiqatda Azərbaycan dövlətinin koronavirus (COVID-19) pandemiyası ilə mübarizə çərçivəsində formalaşdırdığı antiböhran strategiyası, müvafiq dövlət siyasətləri ictimai rəy əsasında qiymətləndirilir. Bir-birini tamamlayan strateji qərar və tövsiyələrə əsaslanan antiböhran siyasəti ilə bağlı vətəndaş rəyinin öyrənilməsi bu istiqamətdə hesabatlılığın təmin edilməsi və gələcək qərarlar üçün istinad məqsədi daşıyır: "Analitik hesabatda dövlətin yaxın dövrdə pandemiyanın makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması məqsədilə həyata keçirdiyi təxirəsalınmaz sosial dəstək tədbirlərindən münasibət göstəriciləri ictimai rəy əsasında qiymətləndirilir.

Yuxarıda qeyd olunan məqsədlərə çatmaq üçün Sosial Tədqiqatlar Mərkəzi tərəfindən Operativ Qərargahın müxtəlif tarixlərdə qəbul edib həyata keçirdiyi antiböhran tədbirlərinə ictimai rəyi öyrənmək məqsədilə aşağıdakı ümumölkə miqyaslı sorğular keçirilib, fokus qrup müzakirələri aparılıb və onların nəticələri tədqiqat qrupu tərəfindən təhlil edilib.

- Birinci mərhələ (24-30 aprel 2020-ci il). Pandemiya ilə mübarizə çərçivəsində qabaqlayıcı və sosial rifahın gücləndirilməsi istiqamətində siyasətə ictimai münasibətin öyrənilməsi (1212 respondentlə keçirilmiş sosioloji sorğu);
- İkinci mərhələ (8-11 may 2020-ci il). Dövlətin sosial dəstək tədbirlərindən yararlananların məmnuniyyətinin ölçülməsi məqsədilə ictimai rəyin öyrənilməsi (1212 respondentlə keçirilmiş sosioloji sorğu);
- Üçüncü mərhələ (22-23 may 2020-ci il). Dövlətin sosial dəstək tədbirlərinə xüsusi qrup kimi karantin dövründə işini itirənlərin münasibətinin öyrənilməsi (365 respondentdən 124-ü ilə sosioloji sorğu);
- Dördüncü mərhələ (9-10 iyun 2020-ci il). Pandemiya ilə mübarizə çərçivəsində tətbiq edilən karantin rejiminin sərtləşdirilməsinə ictimai münasibətin öyrənilməsi (384 respondent ilə keçirilmiş sosioloji sorğu);
- Beşinci mərhələ (3-7 iyul 2020-ci il). Pandemiya ilə mübarizə çərçivəsində bəzi şəhər və rayonlarda tətbiq olunan tədbirlərə və sərtləşdirilmiş karantin rejiminə ictimai münasibətin öyrənilməsi (1212 respondentlə keçirilmiş sosioloji sorğu)".

Departament rəhbəri açıqlamasında bildirib ki, sorğu Bakı şəhəri, Abşeron, Gəncə-Qazax, Şəki-Zaqatala, Lənkəran, Quba-Xaçmaz, Qarabağ, Aran və Dağlıq Şirvan iqtisadi-coğrafi rayonlarını əhatə etməklə 5 mərhələ üzrə, ümumilikdə, 4144 respondentin rəyi öyrənilib. Naxçıvan Muxtar Respublikası və işğal altında olan regionlar sorğuda əhatə olunmayıb.

Hər iqtisadi rayon üzrə sorğuda iştirak etməli olan respondent sayından 10 dəfə çox sayda stasionar telefon nömrəsi müvafiq bazalardan təsadüfi qaydada seçilib. Bundan sonra nəzərdə tutulmuş respondent sayının sorğuda iştirakını təmin edənə kimi seçilmiş nömrələrə zəng olunub.

Karantin rejiminin məhdudiyyətlərini və sorğuda iştirak edən tərəflərin sağlamlığının qorunmasını nəzərə alaraq, sorğunun aparılmasında telefon müsahibə üsulundan istifadə edilib. Sorğuların keçirilməsində müasir texnologiyalar tətbiq olunub. Belə ki, müasir sorğu proqramı SurveyToGo proqramından istifadə edilib".

Təhlillər əsasən aşağıdakı istiqamətlər üzrə prioritetləşdirilib:

- Pandemiya ilə mübarizə çərçivəsində dövlətin qabaqlayıcı tədbirlərinə ictimai rəyin öyrənilməsi;
- Xüsusi karantin rejiminin əhalinin gündəlik həyatına və gəlirlərinə təsirinin öyrənilməsi;
- Pandemiya ilə mübarizə çərçivəsində sosial dəstək tədbirləri;
- Xüsusi karantin dövründə məhsul və xidmətlərin təminatı ilə bağlı tədbirlər;
- Pandemiya ilə mübarizə çərçivəsində həyata keçirilən maliyyə tədbirləri;
- Xüsusi karantin rejimindən çıxışla bağlı tədbirlər;
- Pandemiya ilə mübarizə çərçivəsində beynəlxalq əməkdaşlıq;
- Pandemiya ilə mübarizə çərçivəsində aidiyyəti şəxs və qurumların fəaliyyətinin qiymətləndirilməsi.



Biz birlikdə güclüyük!

# Qənaətbəxş dinamikadan arxayınlaşmaq olmaz

## İlham ƏLİYEV: “Vətəndaşların məsuliyyəti hazırda birinci dərəcəli məsələdir”




*Əvvəli 1-ci səh.*

Lakin ilkin dövrlərin nəticələri daha çox mübarizə tədbirlərinin zamanından və keyfiyyətindən asılı olub. Belə ki, virusun yarada biləcəyi təhlükəyə heç də bütün dövlətlərdə vaxtında reaksiya verilmədi və çevik qabaqlayıcı tədbirlər görülmədi. Bunun acı nəticəsi inkişaf etmiş İtaliya, İspaniya, Fransa və digər dövlətlərin təcrübəsində özünü göstərdi.

Azərbaycanda isə ilk gündən tamamilə fərqli yanaşma ortaya qoyuldu. Ən mühümü odur ki, virusla mübarizə istiqamətində müvafiq addımlar atılanda hələ ölkəmizdə koronavirus infeksiyası qeydə alınmamışdı. Azərbaycanda viruslu xəstənin aşkar olunduğu dövrdən isə vəziyyət ciddi nəzarətə götürüldü, genişmiqyaslı tədbirlərin həyata keçirilməsinə başlanıldı. İctimaiyyət ilk gündən Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın probleme həssas və çevik münasibətlərinin şahidi oldu. Bütün bunların nəticəsidir ki, virusla mübarizə tədbirləri çərçivəsində istər insanların sağlamlığının və təhlükəsizliyinin təmin edilməsi, istərsə də koronavirus xəstələrinin müalicəsi, səhiyyə infrastrukturunun təkmilləşdirilməsi, yeni xəstəxanaların açılması və tibb müəssisələrinin texniki təchizatı baxımından bütün məsələlər uğurla həll edildi.

Bütövlükdə, dövlətimizin həyata keçirdiyi siyasət bir daha göstərdi ki, Prezident İlham Əliyev üçün insan amili, vətəndaşların sağlamlığı, təhlükəsizliyi, ölkəmizin inkişafı və cəmiyyətimizin rifahı başlıca vəzifədir və bu məqsədə nail olmaq üçün bütün vasitələrdən istifadə olunur.

Avqustun 31-də Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalının açılışında videoformatda iştirak edən Prezident İlham Əliyev bir daha bu məsələyə toxunaraq dedi: “Mən bunu bəri başdan - pandemiyanın ilk günlərindən demişdim ki, insanların sağlamlığı bizim üçün prioritet məsələdir və biz bütün səylərimizi bu məsələnin həllinə istiqamətləndirdik.

Prezident İlham Əliyevin koronavirusla mübarizə təşəbbüsləri çoxşaxəlidir. Cənab Prezidentin fərman və sərəncamları ilə Koronavirusla Mübarizəyə Dəstək Fondunun, modul tipli xəstəxanaların yaradılması, yeni laboratoriyaların alınması vətəndaşların sağlamlığı naminə həyata keçirilən hərtərəfli dövlət siyasətindən xəbər verir. Qoruyucu tibbi maska istehsalı müəssisələrinin fəaliyyətə başlaması da bu siyasətin uğurlu nümunələrindən biridir.

### Payız və qış aylarında viruslara yoluxma riski aktivləşir

Virusla mübarizə tədbirlərinin müsbət nəticələrini nəzərə alaraq avqustun 5-dən sərtləşdirilmiş xüsusi karantin rejiminin yumşaldılması, məhdudiyyətlərin azaldılması mümkün oldu. Həmin dövrdən bir sıra qadağalar, ayrı-ayrı fəaliyyət sahələri ilə bağlı məhdudiyyətlər qismən aradan götürüldü. Avqustun 31-dən ölkənin əksər şəhər və rayonlarında sərtləşdirilmiş xüsusi karantin rejimi ləğv edilib. Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda yeni yoluxma halları ilə bağlı təhlükə qaldığına görə bir sıra məhdudiyyətlərin saxlanılması qərara alınıb.

Təbii ki, bu barədə qərar verilərkən qarşıda duran ən mühüm vəzifələrdən biri əldə olunmuş müsbət nəticələrin qorunub saxlanılması və möhkəmləndirilməsi idi. Çünki qarşıdan müxtəlif xəstəliklərin aktivləşdiyi payız və qış mövsümü gəlir. Bu baxımdan virusun yenidən sürətlə yayılması ehtimalı qarşıdakı dövrdə xüsusilə aktuallıq kəsb edir, təhlükə riski yüksəlir.

Onu da qeyd edək ki, beynəlxalq təcrübə koronavirusla mübarizədə uğur qazanmış və karantin rejimini ləğv etmiş ölkələrin sonrakı dövrdə infeksiyanın geniş yayılması nəticəsində yenidən məhdudiyyətləri bərpa etməyə məcbur olduqlarını göstərir. Demək olar ki, əksər dövlətlərdə yumşalma dövründə insanların qüvvədə olan qadağalara, sanitar-epidemioloji tələblərə riayət etməmələri nəticəsində virusa yoluxma sayında yenidən artım baş verib. Azərbaycanda da hələ may ayının 4-də karantin rejiminin yumşaldılmasından sonra müşahidə olunan mənzərə məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlərin mərhələli şəkildə həyata keçirilməsinin zəruriliyini göstərdi.

Hazırda Azərbaycanda gündəlik virusa yoluxma sayında azalma müşahidə olunur. Bu baxımdan sanitar-epidemioloji vəziyyətdən asılı olaraq və ciddi nəzarət mexanizmi tətbiq edilməklə qadağaların tətbiq olunduğu bir sıra sahələrdə məhdudiyyətlər aradan qaldırılıb. Məlum olduğu kimi, artıq təhsildə tədrisin təşkili ilə bağlı qərarlar verilib.

Bununla belə, ölkəmizdə qənaətbəxş dinamikanın olmasına baxmayaraq, mövcud sanitar-epidemioloji vəziyyətin təhlilinə əsasən, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda xüsusi karantin rejiminin uzadılması doğru addımdır. Yoluxma hallarının artım dinamikasına yol verilməməsi üçün xüsusi karantin rejimi hələ bir müddət davam etməlidir. Vətəndaşlar COVID-19-un müalicəsi üçün vaksin tapılmayana kimi mümkün qədər məsuliyyətli davranmalı, maksimum özümüzü və ətrafımızı qorumağı davam etdirməlidirlər. **“Əgər vətəndaşlarımız bundan sonra da məsuliyyətli olarlarsa, - mən qeyd etməliyəm ki, son müddət ərzində biz bu məsuliyyəti, doğrudan da, görürük, hiss edirik, bu, real nəticələrdə öz əksini tapır, - hesab edirəm ki, qısa müddət ərzində biz normal, adi həyata qayıda bilərik. Amma buna nail olmaq üçün, əlbəttə ki, vətəndaşların məsuliyyəti hazırda birinci dərəcəli məsələdir”,** - deyə Prezident İlham Əliyev bildirib.

Düzdür, karantin rejiminin uzadılması sosial və iqtisadi baxımdan çətinliklər doğurur. Lakin ötən ayların təcrübəsi göstərir ki, Azərbaycan dövləti qarşıdan gələn dövrdə də iqtisadi sabitliyin qorunması və əhalinin sosial qayğılarının həlli üçün tədbirlər görmək iqtidarındadır.

***Rəşad CƏFƏRLİ, “Azərbaycan”***

# Rusiyada qalan daha 400 nəfər Azərbaycan vətəndaşı ölkəmizə gətirilib

Rusiyanın Dağıstan Respublikası ərazisində qalan daha 400 nəfər Azərbaycan vətəndaşının ölkəmizə qayıtması təmin edilib.

AZƏRTAC xəbər verir ki, “Samur” sərhəd-keçid məntəqəsindən avtobuslarla ölkəmizə gətirilən soydaşlarımız Fövqəladə Hallar Nazirliyi tərəfindən Rusiya Federasiyası ilə sərhəddə - Qusar rayonunun ərazisində yaradılmış qəbul-çeşidləmə məntəqəsinə yerləşdirilib, müvafiq tibbi yoxlamadan keçirilib.

Qəbul-çeşidləmə məntəqəsində eyni vaxtda 1200 nəfərin yerləşdirilməsi üçün şərait yaradılıb, sanitar-gigiyenik tələblər tam təmin olunub, qidalanma, gigiyenik vasitələrlə təchizat və s. ilə bağlı bütün lazımi tədbirlər həyata keçirilib.

Sərhəd-keçid məntəqəsində ilkin tibbi müayinədən keçən şəxslərin FHN-in qəbul-çeşidləmə məntəqəsində fəaliyyət göstərən və müvafiq tibbi avadanlıqlarla təchiz edilmiş tibbi briqadaları tərəfindən təkrar müayinəsi və burada karantin rejimində müvəqqəti qalması təmin edilir.

Həmçinin hər hansı şübhəli əlamət aşkar edilən şəxslərin daha dəqiq diaqnoz qoyulması üçün xüsusi ayrılmış müvafiq yerli xəstəxanaya təxliyəsi nəzərdə tutulur.

# Azərbaycanda koronavirus infeksiyasına daha 154 nəfər yoluxub, 139 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 154 yoluxma faktı qeydə alınıb, 139 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 36 min 732 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 34 min 116 nəfər müalicə olunaraq sağalıb, 538 nəfər vəfat edib. Aktiv xəstə sayı 2078 nəfərdir.

Ötən müddət ərzində 935 min 396 test aparılıb. Dünənki test sayı isə 6730-dur.




# Nümunəvi mübarizə

## Azərbaycan dövləti vətəndaşlarının sağlamlığı və təhlükəsizliyini özünün ali məqsədi hesab edir

*Əvvəli 1-ci səh.*

### Respublikamız pandemiyadan ən az zərər çəkən dövlətlər sırasındadır

Qlobal pandemiyanın dünyaya yayılmağa başladığı ilk günlərdən Prezident İlham Əliyevin rəhbərliyi ilə qabaqlayıcı kompleks tədbirlər görüldü, ölkənin bütün resursları vətəndaşların sağlamlığının qorunmasına səfərbər edildi. Virus ölkə sərhədlərinə yaxınlaşmazdan əvvəl Azərbaycan koronavirusla mübarizəyə qətiyyətlə qoşuldu, ona qarşı ciddi addımlar atdı. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) tövsiyələrini nəzərə alaraq, hökumət infeksiyanın ciddiliyini anladı və dünyada öz sərhədlərini qapadan, bütün təhsil müəssisələrini bağlayan, kütləvi tədbirləri, idman yarışlarını təxirə salan ilk ölkələrdən biri oldu. Xəstəliyin geniş vüsət almasına imkan verməmək, infeksiyaya yoluxma sürətini azaltmaq, vətəndaşının sağlamlığını qorumaq üçün bütün lazımi tədbirləri həyata keçirdi. Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarı ilə əhalinin sağlamlığının qorunması və təhlükəsizliyinin təmin edilməsi məqsədilə bir çox məhdudiyyətləri nəzərdə tutan karantin rejimi tətbiq olundu, pandemiya şəraitində xüsusi davranış qaydalarını müəyyən edən tələblər, qaydalar qoyuldu. Dövlət başçısının bu məsələyə vaxtında çevik reaksiya verərək təxirəsalınmaz tədbirlər görməsi ilə ölkəmizdə gizli və gözəgörünməz düşmənlə mübarizədə uğurlara imza atıldı. Prezident İlham Əliyevin vətəndaşların sağlamlığını qorumağa yönəlmiş məqsədyönlü strategiyası hətta beynəlxalq qurumlar tərəfindən də təqdir edildi. ÜST bu sahədə respublikamızda atılan addımlara, görülmüş işlərə yüksək qiymət verdi, ölkəmizin təcrübəsini digər ölkələrə nümunə göstərdi. Azərbaycan dünyada COVID-19 pandemiyası ilə ən uğurlu mübarizə aparan ölkələrdən biri kimi tanındı. Hazırda respublikamız pandemiyadan ən az zərər çəkən dövlətlər sırasındadır.



### Yeni xəstəxanalar koronavirusla mübarizədə önəmli rol oynadı

COVID-19 ilə mübarizədə ölkənin səhiyyə sisteminin maddi-texniki bazası xüsusi rol oynayır. Dövlət başçısının tapşırığına uyğun olaraq, ilk növbədə, ölkə səhiyyəsi koronavirusla səmərəli mübarizə üçün tələb olunan standartlara uyğunlaşdırıldı. Hökumətin intensiv və düzgün fəaliyyəti sayəsində səhiyyə infrastrukturu pandemiya ilə mübarizəyə istiqamətləndirildi, aidiyyəti dövlət qurumlarının fəaliyyəti bacarıqla əlaqələndirildi. Ölkədə koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi üçün əlavə müasir tibbi laboratoriyalar alındı, yeni tibb müəssisələri açıldı, modul tipli xəstəxanalar quraşdırıldı. 600 yerlik “Yeni Klinika”nın açılması, 11 modul tipli xəstəxananın inşa edilməsi, bu xəstəxanalarda 4100 çarpayı sayının olması COVID-19 ilə aparılan mübarizədə çox önəmli rol oynadı.

Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalının açılışında videoformatda iştirak edən Prezident İlham Əliyev tibb sahəsində görülən işlərə toxunaraq bildirdi ki, pandemiya dövründə ölkəmizdə yeni xəstəxanaların tikintisi geniş vüsət alıb. Bu məqsədlər üçün böyük vəsait ayrılıb, bütün imkanlar səfərbər edilib. Ölkə üzrə 46 xəstəxana koronavirusa yoluxanların müalicəsi üçün ayrılıb. Bu xəstəxanaların 41-i son 17 ildə inşa olunub. Dövlət başçısının qeyd etdiyi kimi, əgər vaxtında bu xəstəxanalar tikilməsəydi, bu gün biz çox ağır vəziyyətə düşə bilərdik.

Azərbaycanda koronavirusla mübarizə sahəsində atılan vacib addımlardan biri də laboratoriyaların sayının artırılması oldu. Pandemiya yeni başlayanda Azərbaycanda cəmi 6 laboratoriya var idisə, indi bu say 45-ə çatdırılıb. Məlumdur ki, virusa yoluxmuş şəxslərin düzgün müayinə edilib zamanında aşkarlanması mühüm əhəmiyyət kəsb edir. Deməli, nə qədər çox test keçirilsə, bir o qədər də çox yoluxma halları aşkarlanar. İndiyə qədər ölkəmizdə 930 mindən çox test keçirilib. Adambaşına düşən testlərin sayına görə, Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdədir.

Ölkəmizdə səhiyyə sistemində çalışan insanlar daim dövlət tərəfindən qayğı ilə əhatə olunublar. Pandemiya ilə əlaqədar Azərbaycan həkimlərinə diqqət daha da artıb. Həkimlərin həm iş yerlərinin müasirləşdirilməsi, həm də onların maliyyə vəziyyətinin yaxşılaşdırılması üçün əlavə tədbirlər görülüb. Təkcə onu demək kifayətdir ki, COVID-19 xəstələrinə xidmət edən həkimlərin əməkhaqqı əvvəlkinin 3-5 misli qədər artırılıb. Yeganə problem həkimlərin sayındadır. Prezident çıxışında bu problemdən danışarkən deyib ki, heç bir ölkə bu pandemiyaya hazır deyildi: “Heç kimin ağlına gələ bilməzdi ki, dünya belə bir bəla ilə üzləşəcək. Bizdə və eləcə də bütün başqa ölkələrdə həkimlərin sayı normal həyat rejiminə hesablanıb. Ona görə əlavə həkimlərin Azərbaycana dəvət edilməsi gündəlikdə duran məsələlərdən biri idi. Hesab edirəm ki, biz operativ və səmərəli addımlar nəticəsində bu sahədə də məsələni həll etdik. Azərbaycana beş ölkədən - Türkiyədən, Rusiyadan, Çindən, İtaliyadan, Kubadan həkim briqadaları gəlmişdir və bu həkimlər bizə kömək göstərirlər.

Bir sözlə, görülən bütün bu işlər öz səmərəsini verir. Təsadüfi deyil ki, son həftələr ərzində COVID-19 ilə mübarizədə vəziyyət daha müsbətdir. Biz müsbət dinamikanı görürük və ümid edirəm ki, bu dinamika bundan sonra da qorunub saxlanılacaqdır”.



### İnsanların rifahı, sosial vəziyyəti və sağlamlığı hər şeyin fövqündədir

Pandemiya ilə əlaqədar olaraq karantin rejiminin tətbiqi digər ölkələr kimi, Azərbaycanda da iqtisadiyyata mənfi təsir etdi, gəlirlər azaldı. Xüsusilə bir sıra iqtisadi fəaliyyət növlərinin fəaliyyətinin müvəqqəti dayanması vətəndaşların sosial rifahına təsirsiz ötüşmədi. Lakin Azərbaycan dövləti bunu da nəzərə aldı. İqtisadi itkilərə baxmayaraq, ölkə rəhbərinin göstərişi ilə dövlətin siyasətinin prioritetini ölkə vətəndaşlarının sağlamlığının qorunması təşkil etdi. Prezident İlham Əliyevin sərəncamlarına, tapşırıqlarına uyğun olaraq geniş sosial proqramlar həyata keçirildi. Pandemiyanın yaratdığı fəsadları aradan qaldırmaq və vətəndaşlara dəstək məqsədilə dövlət büdcəsindən milyardlarla manat vəsait xərcləndi. Beş milyona yaxın insan geniş sosial paketlə əhatə olundu. Həm dövlət, həm özəl sektorda işləyənlər, eyni zamanda, işsizlər, aztəminatlı təbəqəyə aid olan insanlar dövlət tərəfindən maddi dəstəklə təmin edildilər. Bu, bir daha onu göstərir ki, insanların sağlamlığı ilə yanaşı, rifahı, sosial vəziyyəti bütün məsələlərin fövqündə dayanır.

Azərbaycan dövləti vətəndaşlarının sağlamlığı və təhlükəsizliyini özünün ali məqsədi və vəzifəsi hesab edir. Bütün addımlar da mövcud vəziyyətə uyğun atılır.

Ölkədə tətbiq olunan qaydalar, vəziyyətə uyğun şəkildə atılan addımlar və karantin rejimi öz səmərəsini verir. İyulun ortalarından müsbət dinamikanın əldə olunması nəticəsində yumşalma addımları atılıb. Təkcə avqust ayında yumşalma tədbirlərinin sayı 3-ə çatıb. Hazırda ölkənin bəzi şəhər və rayonlarında sərtləşdirilmiş xüsusi karantin rejimi ləğv edilib, bir çox məhdudiyyətlər aradan qaldırılıb. Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda yeni yoluxma halları ilə bağlı təhlükə qaldığına görə, bir sıra məhdudiyyətlərin saxlanılması qərara alınıb. Yumşalma addımları elə atılır ki, xəstələrin sayı kəskin artmasın. Bu zaman digər ölkələrin təcrübəsi də öyrənilir. Həmin ölkələrdə açılışlardan sonra xəstələrin sayı kəskin artıb. Azərbaycan da digər ölkələrin nümunəsinə uyğun olaraq tam açılma təmin edə bilərdi. Amma dövlətimiz vətəndaşlarını düşünür, onların sağlamlığı və təhlükəsizliyini özünün ali məqsədi və vəzifəsi hesab edir.



### Vətəndaş məsuliyyəti normal həyata qayıtmağın əsas şərtlərindəndir

COVID-19-la bağlı dünya statistikasına baxdıqda görürük ki, ölkəmizdə əldə edilmiş nəticələr, doğrudan da, çox təsirli və dəyərlidir. Məhz bu tədbirlər nəticəsində minlərlə insanın həyatı qorundu. Xəstəliyin geniş vüsət almasına, vəziyyətin nəzarətdən çıxmasına imkan verilmədi. Təbii ki, hazırkı müsbət dinamika davam edərsə və xəstələrin sayında artım olmazsa, yumşalma tədbirləri davam etdiriləcək. Buna nail olmaq üçünsə vətəndaşların məsuliyyəti birinci dərəcəli məsələdir. Dövlət üzərinə nə düşübsə, onu edib. Qlobal təhlükənin öz əhalisinə təsirini mümkün qədər minimuma endirmək üçün ən səmərəli tədbirlər həyata keçirib. Ölkədə koronavirusla bağlı müsbət tendensiya əldə olunub. Hazırda vətəndaş olaraq üzərimizə düşən öhdəlik gərgin səylər nəticəsində əldə olunmuş bu müsbət tendensiyanı qorumağa, daha da yaxşı nəticələrin qazanılmasına dəstək verməkdir. Bunun üçünsə tətbiq olunan karantin qaydalarına anlayışla yanaşaraq əməl etmək, maska taxmaq və sosial məsafəni qorumaq kifayətdir. Vətəndaşlarımız bundan sonra da məsuliyyətli olarlarsa, qısa müddət ərzində normal həyata qayıtmaq mümkündür. Dövlətin qətiyyətli və düşünülmüş ədalətli addımları, vətəndaşların məsuliyyəti imkan verəcək ki, bu ağır vəziyyətdən az itkilərlə çıxaq və daha tez bir zamanda normal, adi həyata qayıdaq.

***Xəyalə MURADLI, “Azərbaycan”***



# İŞİMİZ, GÜZƏRANIMIZ

## Yeddi ayda 1 milyard dollarlıqdan çox qeyri-neft məhsulları ixrac olunub




*Əvvəli 1-ci səh.*

Koronavirus (COVID-19) pandemiyası nəticəsində yaranmış vəziyyətlə bağlı qeyri-neft sektoru üzrə ixrac ötən ilin müvafiq dövrü ilə müqayisədə 98 milyon dollar və ya 8,6 faiz azalıb.

İcmalda, həmçinin qeyd olunur ki, bu ilin yanvar-iyul ayları ərzində Rusiyaya 418,6 milyon, Türkiyəyə 205 milyon, İsveçrəyə 107,6 milyon, Gürcüstana 84,2 milyon və Çinə 31,7 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub. 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə cari ilin 7 ayı ərzində Rusiyaya qeyri-neft məhsullarının ixracı 5,7, İsveçrəyə 21,9 və Çinə 60,9 faiz artıb.

Hesabat dövründə ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pomidor (166,5 milyon dollar) birinci, qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda - 96,5 milyon dollar) ikinci və pambıq mahlıcı (70,6 milyon ABŞ dolları) üçüncü olub.

Ümumiyyətlə, 7 ay ərzində meyvə-tərəvəz ixracı 359,6 milyon, pambıq lifi ixracı 71,6 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 51,3 milyon, kimya sənayesi məhsullarının ixracı 46,5 milyon, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 27,4 milyon, pambıq ipliyi ixracı 10,6 milyon, alkoqollu və alkoqolsuz içkilərin ixracı 7,3 milyon, şəkər ixracı 9,3 milyon, bitki və heyvan mənşəli piylər və yağlar ixracı 13,7 milyon, çay ixracı 5,5 milyon dollar təşkil edib.

İyul ayında isə qeyri-neft sektoru üzrə ixrac 123 milyon dollarlıq olub. Həmin ayda qeyri neft-qaz məhsulları ən çox Rusiyaya (48,3 milyon dollar), Türkiyəyə (27,8 milyon dollar), İsveçrəyə (11,5 milyon dollar), Gürcüstana (7,5 milyon dollar) və Çinə (3,4 milyon dollar) ixrac edilib. İyulda qeyri-neft sektoru üzrə ixracda albalı və gilas (16,4 milyon dollar) birinci, pambıq mahlıcı (12,1 milyon dollar), qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda - 10,7 milyon dollar) üçüncü yerdə qərarlaşıb.

"İxrac İcmalı"nda xidmət ixracı barədə də məlumat verilib. Bildirilib ki, yanvar-iyul aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın 27 ölkəsinə 28,1 milyon dollar dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilib. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,2 faiz artım deməkdir. "Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 90 faizini təşkil edib.

2020-ci ilin iyul ayında isə "Azərkosmos" ASC dünyanın 19 ölkəsinə 6,5 milyon dollarlıq xidmət göstərib. "Azərkosmos" ASC-nin 2020-cu ilin yanvar-iyul aylarında xidmət ixracı həyata keçirdiyi əsas ölkələr ABŞ, Birləşmiş Krallıq, Fransa, Malayziya və BƏƏ olub.

İcmalda məlumat verilib ki, koronavirus (COVID-19) pandemiyası ilə bağlı yaranan vəziyyət digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna təsirsiz ötüşməyib. Mart ayından başlayaraq bu sahədə azalma müşahidə olunur. Bunun nəticəsində 2020-ci ilin iyul ayında xarici vətəndaşların bank kartları vasitəsilə ölkəmizdə apardıqları əməliyyatların həcmi 23 milyon manat təşkil edib. Yanvar-iyul ayında isə əcnəbilər bank kartları vasitəsilə 302,7 milyon manatlıq əməliyyat aparıblar.

"İxrac İcmalı"nda 2020-cu ilin yanvar-iyul ayları ərzində Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə də məlumat verilib. Göstərilib ki, 7 ayda Azexport.az portalına 374,5 milyon dollar dəyərində ixrac sifarişləri daxil olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin 7 ayında portala daxil olan ixrac sifarişləri dəyər baxımından 8 faiz artıb. 2020-ci ilin iyul ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri 55 milyon dollar təşkil edib və bu göstərici ötən ilin müvafiq ayı ilə müqayisədə 26,4 faiz artıb.

Cari ilin iyul ayında Azexport.az portalına ən çox ixrac sifarişi pambıq mahlıcı və pambıq yağı, fındıq ləpəsi, pomidor, tütün, toyuq əti, alma, toyuq yumurtası, quru süd, qənnadı məhsulu, şərab, tikinti materialı, mühərrik yağı, kosmetik vasitə, sarımsaq, nar şirəsi, uşaq bezi, Naftalan yağı və s. mallar üzrə daxil olub. 2017-ci ilin yanvar ayından 2020-ci ilin 31 iyul tarixinə kimi (43 ay ərzində) Azexport.az portalına dünyanın 141 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 1 milyard 959,3 milyon dollar təşkil edib.

"İxrac İcmalı"nda göstərilib ki, bu ilin avqust ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə həyata keçirilən qeyri-neft ixracının dəyəri 19,5 milyon dollar olub. 2020-ci ilin yanvar-avqust ayları ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi tərəfindən yüzlərlə sahibkara ixracla bağlı müvafiq sertifikatlar verilib və bunun nəticəsində 312,8 milyon dollar dəyərində qeyri-neft məhsulları ixrac edilib.

***"Azərbaycan"***

## Azərbaycanda aqrar məsləhət xidmətlərinin gücləndirilməsi məqsədilə beşillik strategiya hazırlanır

Strategiya Avropa İttifaqının maliyyələşdirdiyi və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) həyata keçirdiyi "Aqrar məsləhət xidmətlərinin gücləndirilməsi" layihəsinə əsasən hazırlanır.

Layihə çərçivəsində Gəncə-Qazax və Quba-Xaçmaz regionlarında pilot aqrar məsləhət xidmətləri modelləri də tətbiq edilərək hökumətə tövsiyə olunacaq.

Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin proqram rəhbəri Rayner Freund bildirib ki, Azərbaycan dövlətinin aqrar sahənin inkişafı üçün gördüyü işlərin tərkib hissəsi kimi başlanan "Aqrar məsləhət xidmətlərinin gücləndirilməsi" layihəsi çərçivəsində görüləcək işlərin dayanıqlı və uzunömürlü olması çox vacibdir: "Layihə çərçivəsində işlənəcək pilot aqrar xidmətləri modelləri gələcəkdə ölkədə qurulacaq modellərin necə olacağını göstərəcək".

BMT Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Mələk Çakmak aqrar məsləhət xidmətləri ilə bağlı qanun layihəsinin hazırlandığını diqqətə çatdırıb: "Biz çalışmalıyıq ki, aqrar məsləhət xidmətlərinin icrası ilə bağlı tövsiyələrimiz qanunvericilik çərçivəsində öz əksini tapsın".

Aqrar Elm və İnnovasiya Mərkəzinin ictimai informasiya və beynəlxalq əlaqələr şöbəsinin aparıcı mütəxəssisi Yaqub Quliyev layihə ilə bağlı gözləntinin Azərbaycanda aqrar məsləhət xidməti üçün yerli şəraitə uyğun bir sistem yaradılması olduğunu bildirib: "Ən vacib məsələlərdən biri Azərbaycanda aqrar məsləhət xidməti göstərənlər arasında əlaqə qurulmasıdır. Bu da səmərəli aqrar məsləhət xidmətini təmin edəcək".

Qeyd edək ki, layihənin idarə heyətinin iclasında 2 pilot regionda və hədəf regionu kimi seçilmiş Lənkəran iqtisadi rayonunda 700 nəfərdən artıq fermer arasında aqrar məsləhət xidmətləri barədə götürülmüş sorğunun nəticələri müzakirə olunub. Bildirilib ki, inkişaf etmiş ölkələrin aqrar məsləhət xidməti modelləri pilot olaraq seçildikdə bu sorğuların nəticələrinə uyğun olaraq lokallaşdırılacaq.

## Dövlət Gömrük Komitəsində sahibkarlarla görüş keçirilib

Dövlət Gömrük Komitəsində (DGK) iri kuryer və poçt daşımaları həyata keçirən şirkətlərin təmsilçiləri ilə görüş keçirilib. Görüşdə DGK Katibliyinin rəisi Anar Süleymanov, baş idarə rəisləri, aidiyyəti qurumların rəhbərləri iştirak ediblər.



Katibliyin rəisi Anar Süleymanov avqustun 21-də Nazirlər Kabinetinin 2013-cü il 14 oktyabr tarixli qərarı ilə təsdiq edilmiş "Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları"na edilən dəyişikliklərlə bağlı ətraflı məlumat verib. A.Süleymanov bildirib ki, görüşün keçirilməsində əsas məqsəd sözügedən qərarda əksini tapan dəyişikliklərin bütün detallarını bu sahədə fəaliyyət göstərən şirkət nümayəndələrinin birbaşa diqqətinə çatdırmaq, onları narahat edən məqamlara aydınlıq gətirməkdir.

Qeyd olunub ki, dəyişikliyin qəbulu fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən güzəştli və sadələşdirilmiş qaydada keçirilməsini təkmilləşdirəcək, kölgə iqtisadiyyatı ilə mübarizəyə və qaçaqmalçılığın qarşısının alınmasına xidmət edəcək, eləcə də büdcə daxilolmalarında da mühüm rol oynayacaq.

Görüşün sonunda iri kuryer və poçt daşımaları həyata keçirən şirkətlərin təmsilçilərini maraqlandıran bütün suallar cavablandırılıb, sözügedən qərarla bağlı geniş müzakirələr aparılıb.

## Sosial-psixoloji reabilitasiya xidmətləri təkmilləşdirilir

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin reabilitasiya mərkəzlərində əlilliyi olan şəxslər üçün sosial-psixoloji reabilitasiya xidmətinin təkmilləşdirilməsi məqsədilə xüsusi bölmələr yaradılıb.**

Nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin həmin mərkəzlərində yaradılan sosial-psixoloji reabilitasiya bölmələrinə psixoloq, abilitoloq və təlimatçılar cəlb olunacaq.

Agentlik tərəfindən sosial-psixoloji reabilitasiya xidmətinin təşkili formaları və kadr hazırlığı ilə bağlı Psixologiya Elmi-Tədqiqat İnstitutu ilə əməkdaşlıq ediləcək. Bu məqsədlə həmin institutla memorandumun imzalanması da planlaşdırılır.

## Hacıqabul-Muğan avtomobil yolu yenidən qurulub



**Ölkəmizdə yol infrastrukturunun yenidən qurulması davam edir. Əgər əvvəllər ən müasir standartlara uyğun beynəlxalq və respublika əhəmiyyətli magistral yolların salınması diqqət mərkəzində idisə, indi dövlət başçısının tapşırıqlarına əsasən ölkəmizin demək olar bütün yaşayış məntəqələrində mövcud avtomobil yolları əsaslı təmir edilir və ya yenidən qurulur. Şəhər və rayon mərkəzlərini qəsəbə və kəndlərlə birləşdirən yollar yenilənir.**

Bu tədbirlərin icrası, ilk növbədə, sözügedən marşrutlar üzrə yaşayan əhalinin rahatlığını təmin edir, onların mənzil başına təhlükəsiz çatmalarına imkan yaradır. Həmçinin yolların bu cür müasir səviyyəyə çatdırılması təkcə yol üzərində olan kəndləri deyil, ümumilikdə, həmin rayonun sosial-iqtisadi inkişafına töhfə verir və yolboyu yerləşən yaşayış məntəqələrində sakinlərə əlavə iqtisadi imkanlar açır.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən belə layihələrdən daha biri həyata keçirilib. Hacıqabul rayonunun Hacıqabul-Muğan avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Prezidentin sərəncamına uyğun olaraq, aparılan yenidənqurma işləri sona çatıb.

Sözügedən avtomobil yolunun uzunluğu 11,5 km-dir. Yolun 6,4 km-lik hissəsi III texniki dərəcəli, 5,1 km-lik hissəsi şəhər daxili yoldur. Bu üzdən yolun hərəkət hissəsinin eni müxtəlif ərazilər üzrə fərqlidir və 7-20 metr arası dəyişərək 2-5 hərəkət zolağı təşkil edir. Yolun hər bir istiqaməti üzrə 2,5 metr enində çiyinlər, şəhər daxilində isə piyada səkiləri mövcuddur.

Yolun yenidən qurulması 32 min nəfər əhalinin yaşadığı 2 yaşayış məntəqəsi arasında nəqliyyat əlaqəsinin daha da yaxşılaşmasına, yük və sərnişin daşımasının asanlaşmasına müsbət təsir edəcək. Ən əsası əhalinin bir neçə istiqamətdən həm Bakı-Ələt-Qazax-Gürcüstan dövlət sərhədi avtromobil yoluna, həm də Hacıqabul-Şirvan avtomobil yolu vasitəsilə respublikanın digər şəhər və rayonlarına rahat çıxışı təmin olunacaq.

## Gədəbəy taxılçıları bu il yüksək göstəricilər qazandılar



*Əvvəli 1-ci səh.*

Keçən il 2005 hektar sahədə taxıl əkən fermerlər hər hektardan 29,5 sentner məhsul götürmüşdülər. Dövlətin taxılçılığa göstərdiyi qayğıdan ruhlanan təsərrüfat sahibləri cari ildə taxıl sahələrini 2484 hektara çatdırmışlar ki, onun da 2253 hektarı buğda, 231 hektarı isə arpa olmuşdur.

Biçini optimal müddətdə başa çatdıran fermerlər ümumilikdə zəmilərdən 554 ton arpa, 6805 ton buğda tədarük etmişlər ki, bu da əvvəlki illərdəkindən çoxdur. Taxılçılar hər hektardan götürülən məhsulun həcmini də yüksəltmiş, 30,2 sentnerə çatdırmışlar.

Ümumiyyətlə, rayonda taxılçılığa maraq ildən-ilə artır. İndi elə təsərrüfat sahibləri var ki, qazandıqları uğurlar rayon göstəricisindən yüksəkdir. Məsələn, rayonun Arabaçı kəndinin sakini Əlövsət Bayramov 22 hektarda taxıl əkmişdi. Biçini vaxtında başa çatdıran fermer hər hektardan 35 sentner taxıl götürmüşdür.

Zəhmət kəndinin sakini Eldəniz İbrahimov da bu il yüksək göstəriciyə nail olmuşdur. 2,5 hektarda taxıl əkən təsərrüfat sahibi hər hektardan məhsuldarlığı 34 sentnerə çatdırmışdır. Düz Rəsullu kənd sakini Əhməd Əsgərovun nailiyyəti isə daha yüksək olmuşdur. Belə ki, Əhməd Əsgərov 5 hektar taxıl sahəsinin hər hektarından 37 sentner məhsul götürmüşdür.

Gədəbəy Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Asəf Nağıyev söhbət zamanı demişdir ki, Gədəbəy taxılçıları gələn ilin bol məhsulu üçün indidən hazırlıq işlərinə başlamışlar. Onlar rayonda taxıl biçini başa çatdıqdan sonra torpağın şumlanmasını həyata keçirirlər. Fermerlərin səpini vaxtında həyata keçirmələri üçün rayonda lazımi qədər texnika var.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Təlim müvəkkilləri ilə onlayn iclas olub

**Kənd Təsərrüfatı Nazirliyinin insan resursları şöbəsinin təlim müvəkkilləri ilə onlayn iclası keçirilib.**

İclasda şöbənin təlim və inkişaf sektorunun təşkilatçılığı ilə 2020-ci il ərzində Dövlət Aqrar İnkişaf mərkəzləri və nazirliyin tabeli qurumlarının əməkdaşları üçün təşkil olunan təlimlərlə bağlı hesabatlar dinlənilib.

Onlayn iclasda maarifləndirmə tədbirlərinin ən mühüm tərkib hissələrindən biri olan təlimlərin daha da təkmilləşdirilməsi istiqamətində müzakirələr aparılıb və səsləndirilən təkliflər qeydiyyata alınıb.

Kənd Təsərrüfatı Nazirliyinin rəsmisi E.Paşayev bildirib ki, maarifləndirmə məqsədilə təşkil olunan təlim və tədbirlər əməkdaşların karyera və şəxsi inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Aparat rəhbərinin müavini əlavə edib ki, iclasda səsləndirilən təkliflər nəzərə alınacaq, işçilərin bilik və bacarıqlarının artırılması məqsədilə təşkil olunan təlimlər davam etdiriləcək.

## Vətəndaşların müraciəti əsasında piyada keçidi inşa edilib

Mərdəkan-Buzovna-Bilgəh avtomobil yolunda avtonəqliyyatın intensiv hərəkətini və yol boyu yaşayan sakinlərin çoxsaylı müraciətlərini nəzərə alaraq sözügedən yolda (köhnə "Mərdəkan Broyler" ASC-nin yaxınlığı) yerüstü piyada keçidi inşa edilib.

Piyada keçidinin ümumi uzunluğu pandusla birlikdə 180 metrdir. Keçiddə yaşlı adamların, fiziki məhdudiyyətli insanların, uşaq arabalı valideynlərin rahat hərəkətini təmin etmək üçün müasir, beynəlxalq standartlara uyğun, 80 maillikli piyada pandusları quraşdırılmışdır.

Keçid 3 dayaqlıdır. Orta hissə uzunluğu 52, eni 4,5 metr olan tor şəkilli metal konstruksiyadan ibarətdir. Keçiddə müasir işıqlandırma sistemi qurulmuş, daimi qulluq edəcək personal üçün xidməti otaqlar inşa olunmuşdur.

Qeyd edək ki, sözügedən piyada keçidi Bakı şəhərində cari ildə inşa olunan sayca 4-cüsüdür. Bundan öncə Heydər Əliyev prospektində yeraltı, Moskva prospekti və Neapol küçəsində isə yerüstü piyada keçidləri salınmışdır.

# Məscid və kilsələr yan-yana - dünyaya örnək tolerantlıq modeli

**Azərbaycan xalqının Ümummilli Lideri, uzaqgörən və dahi şəxsiyyət Heydər Əliyev deyib: "Azərbaycan Respublikası çoxmillətli bir dövlətdir.**

**Azərbaycanda müsəlmanlarla yanaşı, başqa dinlərə mənsub olan vətəndaşlar da yaşayır. Azərbaycan müstəqil, demokratiya prinsiplərinə mənsub olan bir dövlət kimi öz ərazisində yaşayan bütün xalqlara, bütün millətlərə dinindən, dilindən, irqindən, siyasi mənsubiyyətindən asılı olmayaraq azadlıq, hürriyyət imkanları verir".**



Ölkəmizdə tarixən mövcud olmuş multikultural dəyərlər sisteminin - Xristianlıq, İudaizm və İslam kimi üç səmavi dinin, bu dinlərə etiqad edən etnosların dini icmalarının və ibadət evləri olan kilsə, sinaqoq və məscidlərin mövcud olduğu, eləcə də müxtəlif azsaylı xalq və etnik qrupların birgə yaşadığı regionlardan biri də Qəbələ rayonudur.

Dünyada yaşayan udilərin sayı 10 minə yaxındır. Altı mindən artıq əhalisi olan Qəbələnin Nic qəsəbəsində isə 3 min 600 udi yaşayır.

AZƏRTAC xəbər verir ki, udilərin məskunlaşdığı qədim Nic qəsəbəsi Qəbələ şəhərindən 40 kilometr cənub-qərbdə, Qəbələ-Oğuz avtomobil yolunun kənarında yerləşir. Şəhər tipli qəsəbə olan Nic dünyada udilərin kompakt şəkildə yaşadığı yeganə yaşayış məskənidir. Hazırda burada udilərlə bərabər azərbaycanlılar, ləzgilər və digər xalqların nümayəndələri mehriban qonşuluq, bir-birilərinin adət-ənənələrinə, mədəniyyətinə qarşılıqlı hörmət şəraitində yaşayırlar. Azərbaycanda yaşayan bütün azsaylı xalqlar kimi, udilərin də mədəniyyətinin, adət-ənənələrinin qorunub saxlanılması, inkişaf etdirilməsi üçün mühüm işlər görülür.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Nic kəndində müasir məktəb binası açılıb, müqəddəs "Cotari" alban-udi kilsəsi bərpa olunub, eləcə də kəndin infrastrukturu yaxşılaşdırılıb. Çoxmillətli Azərbaycan xalqının tolerantlığı və tarixən yaranmış çoxmədəniyyətli mühit respublikamızın bütün xalqlarının, o cümlədən udilərin mədəni və mənəvi inkişafı üçün şərait yaradıb.

Alban-udi icmasının rəhbəri Robert Mobili deyir ki, ölkəmizdə azsaylı xalqlara göstərilən dövlət qayğısı, multikulturalizm dəyərlərinin qorunub saxlanılması, udilərin kompakt şəkildə yaşadığı Nic qəsəbəsinin sosial-iqtisadi problemlərinin həlli üçün görülən tədbirlər Prezident İlham Əliyev tərəfindən Azərbaycan vətəndaşlarına - udilərə verilən ən böyük qiymətdir. İcma rəhbəri qeyd edib ki, ölkəmizdə bütün dinlərin və etiqadların qanun qarşısında bərabərliyi Konstitusiyada təsbit olunub. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə bir çox dini-tarixi abidələr bərpa və restavrasiya edilib, dini maarifçilik işinə xüsusi diqqət yetirilib. Bu iş hazırda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Onun sözlərinə görə, sovetlər dövründə udilərə öz milli bayramlarını qeyd etmək qadağan olunsa da, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra onlar etnik azlıq olaraq öz bayramlarını və adət-ənənələrini geniş qeyd edirlər. O, "Cotari" alban-udi kilsəsinin əsaslı şəkildə bərpasının tolerantlığa gözəl nümunə olduğunu vurğulayaraq bildirib ki, müsəlman və xristianların mehriban şəkildə birgə yaşadığı Nic qəsəbəsi tolerantlığın kiçik bir modelidir.

Hazırda qəsəbə ərazisində olan və sonuncu dəfə XII əsrdə bərpa edilən ən qədim kilsələrdən biri əsaslı şəkildə bərpa olunur. Yaxın vaxtlarda bərpa işləri yekunlaşdıqdan sonra kilsə ibadət üçün vətəndaşların istifadəsinə veriləcək.

Müasir Azərbaycanın təkcə mədəniyyətlərarası və konfessiyalararası deyil, həm də dinlərarası dialoqun mərkəzi olduğunu deyən R.Mobili əlavə edib ki, udilər Avropa ilə Asiyanın kəsişməsində yerləşən tarixi vətənlərində - Azərbaycanda öz dillərini, dinini, qədim adət-ənənələrini qoruyub saxlaya biliblər. Kiçik, amma dini baxımdan zəngin udi xristian icması Alban apostol kilsəsinin varisidir. Robert Mobili digər dini icmalar kimi, Alban-udi icmasının da dövlətin diqqət və qayğısını daim hiss etdiyini vurğulayıb. "Qəsəbədə Azərbaycan Udi Ocağının yaradılması multikulturalizmin daha da inkişafı yolunda mühüm addımdır. Azərbaycan Udi Ocağının gənc nəslin tariximizi öyrənməsində böyük rol oynayacağına əminəm", - deyə o bildirib.

R.Mobilinin sözlərinə görə, bir vaxtlar udilərin kilsələri erməni kilsələrinin tabeliyinə verildiyinə görə, onlar indiki Azərbaycan Udi Ocağında olan evdə ibadət ediblər.

Azərbaycan Udi Ocağı tarixi-etnoqrafik park-muzeyi Böyük Qafqazın cənub yamacının mənzərəli düzənliyində, Nic kəndinin Qocabəyli məhəlləsində yerləşir. Üç hektardan artıq ərazidə yerləşən açıq səma altındakı bu park-muzey udi xalqının mədəniyyətini, ənənələrini, məişətini və yaşayış tərzini əks etdirən etnoqrafik kənddir. Park-muzey ekspozisiya şəklində bir neçə etnoqrafik sahəyə bölünür. Evin içində və həyətində Qafqaz albanlarının varisləri olan udilərin həyatına aid müxtəlif ev əşyaları, ev bəzəkləri, ənənəvi tikmələr, fotoşəkillər, sənədlər, kitablar, qədim paltar və geyimlər, müxtəlif dizaynlı arabalar, təkərlər, kotanlar və digər eksponatlar mövcuddur.

Muzeyin önəmli eksponatlarından biri qədim ənənələrə malik olan udi xalqına məxsus evin giriş darvazasıdır. Həyətyanı sahədə orijinal üslubda tikilmiş iki qonaq evi var. Evlərin quruluşu və interyeri udi xalqının qonaqpərvərliyini əks etdirən müxtəlif əşyalarla zəngindir. Evin eyvanından Böyük Qafqazın cənub yamacına, müasir kənd evlərinə və məhəllələrinə gözəl mənzərə açılır. Bu tikili XVII əsrin sonunda Nic kəndinin Qocabəyli məhəlləsi ərazisində çiy kərpicdən olan daş təməl üzərində taxtadan qurulmuş udi evidir.

Muzeyin kolleksiyası hazırda iki mindən çox eksponatı əhatə edir.

Son illərdə kənd ərazisində dini və dünyəvi xarakterli çoxsaylı tədbirlər, konfranslar və forumlar keçirilib. Muzey 2017-ci ilin əvvəlində azərbaycanlı arxitektor, rəssam UNESKO-nun memarlar ittifaqının həqiqi üzvü Şahvələd Məmmədov tərəfindən təsis edilib.

Qəbələ Rayon İcra Hakimiyyətinin nümayəndəsi İbrahim Məmmədovun sözlərinə görə, Qəsəbədə udilər öz dilini, dinini, adət-ənənələrini 2500 ildir ki, qoruyub saxlayırlar. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda dövlət-din münasibətləri demokratik prinsiplərə və beynəlxalq hüquq normalarına uyğun tənzimlənir və hər bir kəsin dini etiqad azadlığı təmin edilir.

Nic qəsəbəsində beş məktəb var. Onlardan üçündə udilər rus və udi dilində, ikisində isə Azərbaycan dilində dərs keçirlər.

Bundan əlavə, qəsəbədə iki məscid və üç kilsə var. Müsəlmanlar öz dini mərasimlərini məscidlərdə, udilər və digər xalqlar isə kilsələrdə qeyd edirlər.

# Beynəlxalq aləm

## Nigeriyada quldurların əlindən 778 uşaq və qadın xilas edilib



Nigeriya Ordusu son aylarda Nasarava əyalətində silahlı dəstə üzvləri tərəfindən oğurlanmış 778 uşaq və qadını azad edib.

Bu barədə əyalət başçısının müavini Emmanuel Akabe məlumat verib. O bildirib ki, Nasaravanın müxtəlif rayonlarında uğurlu əməliyyatlar keçirilib. Onların əksəriyyətinin sağlamlıqla bağlı problemləri var və buna görə müalicə kursu keçirlər. Bandalara qarşı əməliyyatlar davam edir. Cinayətkarları silahı yerə qoymağa və təslim olmağa çağırıram", - deyə Akabe bildirib. Nigeriyada silahlı dəstələrin üzvləri tez-tez Afrika ölkəsinin dinc sakinlərini pul almaq məqsədi ilə oğurlayırlar.

## Makron Livan üzrə beynəlxalq konfransın keçirilməsini təklif edib



Fransa oktyabrın ortalarında Livanın dəstəklənməsi üzrə beynəlxalq konfrans keçirməyə hazırdır. Bunu Beyrut dəniz limanına səfəri zamanı Prezident Emmanuel Makron deyib. Bu barədə TASS Agentliyi xəbər verir.

"Biz bütün beynəlxalq ictimaiyyətin səfərbər olunmasını davam etdirməliyik. Mən buna hazıram ki, biz bəlkə də oktyabrın ortalarında Birləşmiş Millətlər Təşkilatı ilə birlikdə Livanın dəstəklənməsi üzrə beynəlxalq konfrans təşkil edək", - deyə Fransa lideri bildirib. Fransa Prezidenti Livanın yeni Baş nazirinin ölkədə lazımi islahatların aparılması üçün hökuməti tez bir zamanda formalaşdıracağına ümid etdiyini vurğulayıb.

## Koronavirusa yoluxanların əksəriyyəti əslində sağlamdır



Koronavirusa yoluxmuş adamların təxminən 90% - i ətrafdakılar üçün tamamilə təhlükəsizdir və buna görə də xəstə sayıla bilməz. Bu qənaətə amerikalı tədqiqatçılar gəliblər.

"Nyu York Tayms" qəzetinin xəbərinə görə, səhiyyə sahəsində mütəxəssislər üç ştatda eksperiment keçiriblər. Onlar COVID-19 üçün standart testlərin az miqdarda virus daşıyıcılarında da infeksiya müəyyənləşdirdiyini təsbit edirlər. Alimlər hesab edirlər ki, bu cür insanların başqalarını yoluxdurma ehtimalı çox azdır. Ekspertlər "real" xəstələri aşkar etmək üçün diaqnostika zamanı yoluxmuş xəstələrin sayını müəyyən etmək üçün dövrlərin sayını azaltmağı təklif ediblər.

PSR testi ona əsaslanır ki, virusun genetik materialı tsiklvari artır . Virusu "tutmaq" üçün dövrələrin sayı nə qədər az olsa, xəstə bir o qədər təhlükəlidir. Amerikalı alimlər hesab edirlər ki, tsikllərin sayı 40-dan 30-35-ə endirilməlidir. Bu, kontagioz xəstələri müəyyən etmək üçün kifayətdir.

## İŞİD terrorçularının Türkiyədəki "əmiri" tutulub



Türkiyənin Daxili İşlər naziri Süleyman Soylu İŞİD terror təşkilatının Türkiyə üzrə "əmir"i Mahmud Özdənin həbs edildiyini bildirib. Bu barədə "Anadolu" Agentliyi xəbər verir. "Axtarış zamanı Özdənin pozucu fəaliyyətinin vacib planları aşkarlanıb", - deyə Soylu Tvitter-də öz səhifəsində polis əməkdaşlarına təşəkkürünü bildirib.

Soylu bildirib ki, həbs edilmiş İŞİD başçısı İraq və Suriyadan tapşırıqlar alıb. Məsələn, ona Türkiyədə təxribat və terror fəaliyyəti məqsədi ilə 10-12 nəfərlik qrupların formalaşdırılması tapşırılıb.

## İsveçdə yenidən müsəlmanlara qarşı təxribat törədilib

İsveçdə islamofobiya zəminində növbəti təxribat törədilib. SVT telekanalının xəbərinə görə, Karlskron şəhərinin Ronnebi məhəlləsindəki məsciddə Quranın yandırılmış səhifələri və donuz əti parçaları tapılıb. Ərəb Mədəniyyəti mərkəzinin rəhbəri Bassam Cəmil telekanala müsahibəsində radikal ünsürlərin təsirindən çox təəssüfləndiyini bildirib.

Onun dediyinə görə, təxribatın iştirakçıları Quranın qırıq-qırıq səhifələrində həm də müsəlmanları təhdid edən sözlər yazıblar. Şəhər polisi insidentlə bağlı "ksenofobiya"maddəsi ilə təhqiqata başlayıb.

Ötən ayın 28 - də Rusenqord şəhərində müqəddəs kitab ekstremistlər tərəfindən yandırılmışdı.

# Ermənistanda faşizm dövlət siyasətidir

*Əvvəli 1-ci səh.*

Lakin bu ideyaları dirçəltməyə və yaymağa can atan Ermənistanda neofaşizm yeni intibah mərhələsini yaşamaqda, çoxsaylı tərəfdarlar toplamaqdadır. Hitlerçilərlə çiyin-çiyinə insanlığa qarşı saysız-hesabsız cinayətlər törətmiş erməni caniləri bu gün Ermənistanda qəhrəman kimi təqdim olunur, onların nifrətamiz xatirəsi əbədiləşdirilir, abidələri ucaldılır. Belə mənfur "qəhrəman"lardan biri Njde ləqəbli cinayətkar Qaregin Yegişeviç Ter-Arutyunyandır. Hətta İkinci Dünya müharibəsində nasistlərin tabeliyində olan hərbi birləşməyə başçılıq edən erməni əsilli Qaregin Ter-Arutyunyana (Njdeyə) Yerevanın mərkəzində abidə də ucaldılıb.

Nikol Paşinyan da öz sələflərinin siyasətini davam etdirərək, faşistlərin qəhrəmanlaşdırılmasına bəraət qazandırır. Bu gün Ermənistanda hakimiyyətdə təmsil olunan bir çox yüksəkvəzifəli şəxslər faşistlərin nəsillərinin davamçılarıdır, onlar ailə bağları ilə faşizm ideyalarına sadiqdir, bu xislətləri ilə fəxr edirlər. Təsadüfi deyil ki, bütün ölkələr nasizmdən imtina etsə də, yalnız Ermənistan fərqli mövqe tutur. Ermənistanın baş naziri Nikol Paşinyanın babasının II Dünya müharibəsində nasistlər tərəfindən döyüşməsi faktının ortaya çıxması isə bu mənada çox şeydən xəbər verir. Onun "Njde" ləqəbli Qaregin Ter-Arutyunyanla faşistlər tərəfində döyüşməsi danılmaz faktdır.

Xatırladaq ki, Ter-Arutyunyan Üçüncü Reyxin əsas adamlarından idi. O, ötən əsrin əvvəlində azərbaycanlılara qarşı soyqırımı aktlarının törədilməsi planının ideoloji banilərindən sayılır. Onun nasistlərin cəbhəsində 1942-ci ildə ermənilərdən ibarət yaratdığı cəza legionu Ukraynada, Polşada yəhudilərə və digər millətlərə qarşı kütləvi qətliamlar törətmişdir. Tarixi məlumatlara görə, bu legion təkcə Krımda 20 min insanı məhv edib. Ermənistanla yanaşı, müxtəlif ölkələrə səpələnmiş erməni diasporu da Njdenin timsalında faşizmin qəhrəmanlaşdırılması istiqamətində çalışır, müxtəlif şəhərlərdə nasist cəllada abidələr ucaldırlar.

Ermənistanda "küçə inqilabı" ilə hakimiyyətə gələn Nikol Paşinyanın "demokratiya" nağılları bu ölkənin faşizm siyasətindən əl çəkəcəyi, Njdeyə qoyulan abidənin söküləcəyi haqda gözləntilər yaratdı. Lakin Ermənistan baş nazirinin babası Nikol Paşinyanın Hitlerin əsgəri olması faktının ortaya çıxması bunun niyə olmadı sualının da cavabını aydınlaşdırdı. Bu fakt həm də onu sübut edir ki, Ermənistanın indiki baş naziri sələflərinin yox, birbaşa babasının və soyqırımı ideologiyasının erməni banilərinin mirasının davamçısıdır.

1913-cü il dekabrın 23-də Yerevan quberniyasının Yenokavan bölgəsində anadan olmuş baba Nikol Paşinyan düşmənlə əməkdaşlıq edib və öldürülüb. Dəqiq məlum olan budur ki, Ermənistanın indiki baş nazirinin babası Ukraynanın Jitomir vilayəti sovet ordusu tərəfindən faşistlərdən azad ediləndən ilyarım əvvəl, yəni 1943-cü il sentyabrın 29-da bu vilayətin Zvyaqel kəndində haqlı olaraq məhv edilib. Sovet qoşunları yaxınlaşdıqca oradakı partizan dəstələrinin və gizli qrupların fəallığı artırdı. Buna görə də istisna edilmir ki, hitlerçi-njdeçi Nikol Paşinyan məhz xalq könüllü dəstələrinin belə cəsarətli müqavimət əməliyyatlarından birində məhv edilib. Bu da məlumdur ki, Jitomir vilayətində yəhudiləri kütləvi şəkildə qırıblar. Bu iş əsasən SS polislərinə və digər murdar ünsürlərə tapşırılırdı. Ermənistanın indiki baş nazirinin babasının da məhz bu yolla çörəkpulu qazandığı ehtimal edilirdi.

Nəvə Paşinyan da sələflərinin xəttini davam etdirərək cəbhə bölgələrində azərbaycanlı mülki əhalinin, yaşayış məntəqələrinin davamlı olaraq atəşə tutulmasında xüsusi fəallıq göstərir. 2020-ci ilin iyul döyüşləri bir daha bunu sübut etdi. Elə bu səbəbdəndir ki, erməni işğalçıları həm mülki əhaliyə qarşı vandalizm siyasəti həyata keçirir, həm də təmas xəttində atəşkəs rejimini pozmaqda davam edirlər. İşğalçı Ermənistan ordusunun təmas xəttində ardıcıl həyata keçirdiyi təxribatlar, Azərbaycanın cəbhə bölgəsində yaşayan mülki vətəndaşlarının mütəmadi olaraq ölüm təhlükəsi altında saxlanılması Silahlı Qüvvələrimizi cavab tədbirləri görməyə məcbur edir. Belə bir ordunun isə Silahlı Qüvvələrimizin ilk həmləsində darmadağın olacağı heç bir şübhə doğurmur. Məhz bu səbəbdəndir ki, Ermənistan rəhbərliyi hər vəchlə münaqişənin həlli ilə bağlı aparılan danışıqlar prosesinin uzadılmasına çalışır. Erməni əsgərlərinin mülki əhalimizi hədəf götürərək yaşayış binalarını, əkin-biçin sahələrini atəşə tutması ilk dəfə deyil. Onlar qoca, qadın, uşaq demədən hər zaman mülki əhalini atəşə tutur, dinc vətəndaşlarımıza xətər yetirirlər.

Beləliklə, baba və nəvə Paşinyanla bağlı üzə çıxanlar Ermənistanın faşizm sevgisini izah edən ən mühüm faktordur.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***


## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu Publik Hüquqi Şəxsi

### *açıq tenderə dəvət edir*

Fondun Aparatının və struktur bölmələrinin istifadəsi üçün avtomobillərin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 150 (bir yüz əlli) manat**
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: -142330**
**Büdcə səviyyəsinin kodu : - 4**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (notarial qaydada təsdiq olunmuş) və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (02.09.2020-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışları qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu il üzrə maliyyə hesabatının surəti tələb olunur);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (02.09.2020-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir);*
- *bənzər işlərdə təcrübəsi barədə müqavilələr və görülmüş işlər barədə təsdiqedici sənədlər təqdim olunmalıdır;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **24.09.2020-ci il saat 14:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **02.10.2020-ci il saat 14:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **05.10.2020-ci il saat 14:00-da** açılacaqdır.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***



## Sumqayıt Şəhər İcra Hakimiyyəti 2020-ci ildə 222920 - "İstehlak yönlü müxtəlif xidmətlər" xərc maddəsi üzrə guşələrin yaradılması və bədii tərtibat işlərinin dəyərinin ödənilməsi, sənədlərin cildlənməsi və katriclərin doldurulmasının satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçiriləcəkdir.

Tender iştirakçılarına təklif olunur ki, **www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı 200 manatdır.**

**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T CTREAZ22**
**Təşkilat: Sumqayıt Şəhər İcra Hakimiyyəti**
**Hesab №: AZ14CTRE00000000000002516631**
**VÖEN: 2900054881**
**Büdcə səviyyəsinin kodu - 7y**
**İqtisadi təsnifat - 142330**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **06 oktyabr 2020-ci il saat 15:00-a** qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə **14 oktyabr 2020-ci il saat 17:00-a** qədər Portala təqdim etməlidirlər.

İddiaçıların təklifləri **15 oktyabr 2020-ci il saat 15:00-da** Portalda açılacaqdır.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***



## "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti gücü 385 MVt olan "Qobu" Elektrik Stansiyasının tikinti-quraşdırma işləri, enerjisistemə inteqrasıyası layihəsi üzrə yarımstansiyaların tikintisi, yenidən qurulması, elektrik şəbəkəsində genişləndirmə və elektrik verilişi xətlərinin tikinti-quraşdırma işlərinin satın alınması məqsədilə

### *təkliflər sorğusu elan edir*

Tender 2 LOT üzrə keçirilir. İştirak etmək istəyən iddiaçılar öz sənədlərini 07 sentyabr 2020-ci il saat 15:00-dək "Azərenerji" ASC-nin Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10 ünvanında yerləşən inzibati binasına təqdim etməlidirlər.

***Tender komissiyası***

# Bakıda 7 minədək sakinin yaşadığı kənddə yenidənqurma işləri aparılır

**"Azərişıq" ASC- nin Mətbuat xidmətinin verdiyi məlumata görə, Abşeron rayonu Məhəmmədi kəndində 1700 abonentin kompakt məskunlaşdığı ərazidə əhalinin enerji təchizatının yaxşılaşdırılması məqsədi ilə 2 ədəd 1600 kVA güc transformatoru quraşdırılacaq yeni paylayıcı qurğunun tikintisinə başlanıb.**

Bundan başqa, 10 kV "Məhəmmədi-1", 10 kV "Məhəmmədi-4" və "Məhəmmədi-5" hava xəttində zədəli dayaqlar yenisi ilə əvəzlənib. Xətlər daha keyfiyyətli müasir kabellərlə əvəz olunub. Ərazidə bir neçə yeni transformator quraşdırılaraq əlavə güc mərkəzi yaradılıb.

Beləliklə, 7 minədək sakinin yaşadığı kənddə işlər tam başa çatdıqdan sonra evlər dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təmin olunacaq. Bundan başqa, qəzaların sayı azalacaq, itkilərin həcmi minimuma enəcək. İşlər plana uyğun olaraq, Bağlar EŞ ərazisində ardıcıl şəkildə davam etdiriləcək.

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində "Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" Publik Hüquqi Şəxsi *açıq tenderə dəvət edir*

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində "Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" Publik Hüquqi Şəxsi və tabeli müəssisələri üçün maşın və avadanlıqların satın alınması üzrə açıq tenderə dəvət edir. Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı : 500 (beş yüz) manat**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində "Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi"**
**Publik Hüquqi Şəxsi**
**VÖEN: 1003853391**
**Bank : Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**MÜXBİR HESABI: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT BIK CTREAZ22**
**H/HESABI: AZ41CTRE00000000000002947601**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *iştirak haqqının ödənilməsini təsdiq edən sənəd;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (31.08.2020-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışı qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu il üzrə);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (31.08.2020-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir);*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlılığının olması;*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində, tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **22.09.2020-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **30.09.2020-ci il saat 18:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **01.10.2020-ci il saat 15:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Qubadlı Rayon İcra Hakimiyyəti abadlaşdırma və yaşıllıqların mühafizəsi işlərinin görülməsi üçün *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçiriləcək:
LOT-1. Abadlaşdırma və yaşıllıqların mühafizəsi

**İştirak haqqı: 150 manat**
**Qubadlı Rayon İcra Hakimiyyəti**
**Sumqayıt şəh., İnşaatçılar qəs., Kimyaçılar küç., 2**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**SWIFT CTREAZ 22**
**Hesab: № AZ30CTRE00000000000002516731**
**VÖEN: 4600025881**

**İştirak haqqı heç halda geri qaytarılmır.**

İddiaçılar tendertdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *Fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *İştirakçının son bir illik maliyyə vəziyyəti barədə bank arayışı;*
- *İştirakçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə (VÖEN) və kommersiya hüquqi şəxslərin dövlət reyesterindən çıxarış, ehtiyac olduqda lisenziya) surətləri;*
- *İştirakçının potensial imkanlarının olması haqqında məlumat (müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar);*
- *Müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair son vergi ilində təmin edilməmiş öhdəliklərin olub-olmaması haqqında arayış.*

Tender üzrə bütün prosedurlar (yazışmalar, sənədləşmə və.s ) Azərbaycan dilində olmalıdır.

İştirakçının tender təklifi tender zərflərinin açıldığı gündən ən azı 30 bank günü ərzində qüvvədə olmalıdır.

İştirakçılar tenderdə iştirak etmək üçün **25 sentyabr 2020-ci il saat 10:00-a** qədər aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Tender təklifi tender dəyərinin 1 faizi həcmində bank təminatı ilə birlikdə **05.10.2020-ci il saat 10:00-a** qədər dövlət satınalmalarının vahid internet portalı vasitəsilə elektron qaydada təqdim edilməlidir.

İştirakçının tender zərfləri Qubadlı Rayon İcra Hakimiyyətinin binasında **06.10.2020-ci il saat 10:00-da** açılacaqdır.

İştirakçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tenderlə əlaqədar məlumat almaq istəyənlər əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Telefon: 018 654 38 68**
**Mobil: 050-330-88-69**
**Ünvan:** Sumqayıt şəh., İnşaatçılar qəs., Kimyaçılar küç., 2.

Təkliflərin qiymətləndirilməsində aşağı qiymət, yüksək keyfiyyət, işin vaxtında yerinə yetirilməsi, tam şəkildə başa çatdırılması kimi meyarlara üstünlük veriləcəkdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 09 iyun 2020-ci il tarixli nömrəsində dərc edilmiş və dövlət satınalmalarının vahid internet portalı vasitəsilə keçirilmiş Azərbaycan Respublikası Mərkəzi Bankının xəzinə infrastrukturunun fəaliyyətini təmin etmək üçün elektrikli yükqaldıranların satın alınması ilə əlaqədar açıq tender üzrə Tender komissiyasının 14 avqust 2020-ci il tarixli qərarına əsasən, "Xəzər İnşaat Şirkəti" MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 14.09.2020-ci il tarixdə keçirilməsi nəzərdə tutulan Bakı Metropoliteninin III yeni ("Bənövşəyi") xəttinə aid "B-3" stansiyasının yerüstü sahəsinin abadlaşdırılması layihəsi çərçivəsində yaşıllaşdırma işlərinin satın alınması üzrə açıq tenderin vaxtı 25 sentyabr 2020-ci il saat 14:30-a keçirilmişdir. Bununla əlaqədar iddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 16 sentyabr 2020-ci il saat 14:30-a qədər, tender təklifi və bank təminatını isə 24 sentyabr 2020-ci il saat 14:30-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## "Azərsu" ASC daxili vəsaiti hesabına elektronsatınalma vasitəsi ilə Hövsan Aerasiya stansiyasında çatışmazlıqların aradan qaldırılması üçün görüləcək işlərin və mal-materialların satın alınması üzrə *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar)https://www.etender.gov.az-dövlət satınalmalarının vahid internet portalından tender haqqında ətraflı məlumatı əldə edəbilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: Tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 3(üç) il üzrə oxşar mal-materialların təchizatı və həcmi üzrə icra edilmiş ən azı 2(iki) müqavilə) və ən aşağı qiymət təklifi.

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra dövlət satınalmalarının vahid internet portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 200 manatdır.**
**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
- malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;
- malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.
- müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 25sentyabr 2020-ci il saat 18.00-a qədər, tender təklifi və bank təminatını isə5oktyabr 2020-ci il saat 18.00-a qədər dövlət satınalmalarının vahid internet portalı vasitəsi ilətəqdim etməlidirlər.

Elektron satınalmanın açılışı 6 oktyabr 2020-ci il saat 18.00-dadövlət satınalmalarının vahid internet portalındahəyata keçiriləckdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən 19 avqust 2020-ci il tarixdə www.etender.gov.az Portalında, 21 avqust 2020-ci il tarixdə "Azərbaycan" qəzetində dərc edilmiş 24 avqust 2020-ci il tarixdə 221200 - "Mətbəə xərcləri" maddəsi üzrə mətbəə məhsullarının satın alınmasına dair keçirilmiş kotirovka sorğusunda Tender komissiyasının qərarı ilə "Printland" MMC müsabiqənin qalibi elan olunmuşdur.

Qalib təşkilatla 28 avqust 2020-ci il tarixdə 12060,78 (on iki min altmış manat 78 qəpik) manat məbləğində satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyəti tərəfindən 07 may 2020-ci il tarixdə vahid satınalma portalında elan edilmiş "Rabitə xətt təsərrüfatının tikintisi və istismarı üçün tələb olunan 10 abunəçi tutumlu hermetik plastik korpuslu paylayıcı abunəçi qutusunun satın alınması" üzrə keçirilmiş açıq tender prosedurunun qalibi "Aztelmaş" MMC müəyyən edilmişdir.

"Aztelekom" MMC ilə "Aztelmaş" MMC arasında 28 iyul 2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Mərkəzi Bankı üçün elektrik mallarının satın alınması ilə bağlı kotirovka sorğusuna dair Satınalmalar komissiyasının 11 avqust 2020-ci il tarixli qərarına əsasən, "HİLAL LTD" müəssisəsi qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

## "Azərsu" ASC daxili vəsaiti hesabına elektron satınalma vasitəsilə nəqliyyat vasitələri və xüsusi texnikalar üçün avtoşinlərin satın alınması məqsədilə *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) dövlət satınalmalarının **https://www.etender.gov.az** vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

-tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu;
-tenderin tələblərinə uyğun aşağı qiymət.

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra tenderin əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 300 manatdır.**

**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank" ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. I. F. T. BIK: AIIBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **28 sentyabr 2020-ci il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə **06 oktyabr 2020-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **07 oktyabr 2020-ci il saat 18:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Ali Məhkəmənin əməkdaşı Nəsimi Qədimbəyliyə atası

**HAFİZ QƏDİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yusif və Cavanşir Yusifov qardaşları Mirənvər Mahmudova qardaşı

**MİRƏHMƏD SEYİDMAHMUD OĞLU MAHMUDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7365
Sifariş 2059
Qiyməti 40 qəpik